AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

30 dekabr 2016-cı il № 85-88 (9091) Qiymәti 50 qәpik

## BU SAYIMIZDA


### NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ AVRASİYA ŞURASININ YARADILMASI MƏSƏLƏSİ MÜZAKİRƏ EDİLİB



*Moskvada BMT-nin Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 3-cü Nazirlər konfransı keçirilib. Tədbirdə Azərbaycanı nəqliyyat naziri Ziya Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.*

Səh. 2

### DƏNİZÇİLƏR HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT EDİBLƏR



*Dekabrın 10-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əməkdaşları və Azərbaycan Dövlət Dəniz Akademiyasının müəllim və tələbə heyəti Ümummilli Liderin anım günü ərəfəsində Heydər Əliyev Mərkəzini ziyarət ediblər.*

Ziyarətə gələn dənizçilərə Heydər Əliyev Mərkəzi barədə geniş məlumat verilib.

Səh. 3

### ƏHALİNİN SİYAHIYAALINMASINA YARDIM ÜZRƏ MƏRKƏZİ KOMİSSİYA YARADILIB



*Azərbaycan Respublikasının Nazirlər Kabineti "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" Qərar qəbul edib.*

Səh. 4

### İSTANBULDA ASİYA VƏ AVROPANI DƏNİZİN ALTINDAN BİRLƏŞDİRƏN AVRASİYA TUNELİNİN AÇILIŞI OLUB



***Dekabrın 20-də İstanbulda Asiya və Avropa qitələrini dənizin altından avtomobil yolu ilə birləşdirən Avrasiya Tunelinin açılışı olub.***

Açılış mərasimində dövlət və hökumət nümayəndələri, eləcə də xarici ölkələri təmsil edən çox sayda rəsmi təmsilçi, Türkiyə ictimaiyyətinin görkəmli şəxsləri iştirak edib.

Səh. 5

### DÜNYA YENİ İLİ NECƏ QARŞILAYIR



***Yeni il dünya xalqlarının ən səbirsizliklə gözlədikləri və böyük ümidlər bəslədikləri bayramdır. Ona görə, hər bir ölkə bu bayrama böyük həvəslə hazırlaşır. Tarixən belə olub və ötüb keçən əsrlər ərzində hər xalqın özünün Yeni il ənənələri formalaşıb.***

Səh. 6

### CÜDO ÜZRƏ AZƏRBAYCAN ÇEMPİONATINA YEKUN VURULUB



***Dekabrın 23-də Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə keçirilən Azərbaycan çempionatına yekun vurulub.***

Səh. 8


# DÜNYA AZƏRBAYCANLILARINA



***Əziz həmvətənlər!***
***Hörmətli soydaşlar!***

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.**

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi – Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 24 dekabr 2016-cı il.*

# T Ə B R İ K

***Hörmətli həmkarlar!***

Sizi qarşıdan gələn bayramlar – xalqımızın milli mənəvi birliyini təcəssüm etdirən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik və müstəqil Azərbaycanımızın tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Yola saldığımız il yaddaşımızda dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycanın beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması, milli və dövlətçilik maraqlarının yüksək səviyyədə təmin olunması, iqtisadiyyatın şaxələndirilməsi, bir çox layihələrin uğurla başa çatdırılması kimi mühüm hadisələrlə yadda qalacaq. 2016-cı il əlverişli coğrafi mövqeyə malik pespublikamızın tranzit potensialının inkişaf etdirilməsi baxımından da əlamətdar oldu. Başa çatmaqda olan il həm də Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və möhtərəm Prezidentimiz İlham Əliyevin layiqincə davam etdirdiyi kursun alternativsizliyini bir daha təsdiq etdi.

2016-cı il "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün də uğurlu oldu. Gəmiçiliyin beynəlxalq əlaqələrinin genişləndirilməsi, müstəqil Azərbaycanın üçrəngli bayrağı altında üzən gəmilərimizin dünya sularında möhkəmlənməsi, donanmalarımızın daha müasir gəmilərlə zənginləşdirilməsi, Bakı Gəmiqayırma Zavoduna hər biri 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını (TIR) tutumlu nadir Ro-Pax/Bərə tipli iki bərənin və iki tankerin tikintisinin sifariş edilməsi kimi çox xoş hadisələrin sevincini sizinlə birgə yaşadıq.

Dövlət başçımızın iyunun 24-də imzaladığı Sərəncamlarla 1nəfərin Azərbaycanın Əməkdar mühəndisi, 2 nəfərin Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülməsi, 9 nəfərin "Tərəqqi" medalı ilə təltif edilməsi isə Gəmiçiliyin bütün kollektivinin əməyinə verilən yüksək qiymətin bariz nümunəsi idi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Rəşid Behbudov" sürətli sərnişin gəmisi, "Gəncə" tankeri və "Qafur Məmmədov" quru yük gəmisinin istismara verilməsi mərasimində iştirakını hədsiz sevinclə qarşılayan kollektivimiz, dahi rəhbərimizin tapşırıq və tövsiyələrini də gələcək üçün fəaliyyət proqramı kimi qəbul etdi.

Əminəm ki, kollektivimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanan və ölkə həyatının bütün sahələrində daha böyük yüksəlişi təmin edəcək yeni islahatlar konsepsiyasını Yeni ildə əməli işi ilə dəstəkləyəcək, dəniz nəqliyyatı qarşısında qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirəcək, ölkəmizin iqtisadi qüdrətinin artmasına sanballı töhfə verəcək.

Əziz həmkarlar!

2017-ci ildə süfrələriniz bərəkətli, üzünüz gülər, yolunuz açıq olsun!

***Rauf VƏLİYEV,***
***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"***
***Qapalı Səhmdar Cəmiyyətinin sədri***

# 2016-CI İLDƏ AZƏRBAYCANA MƏNSUB DƏNİZ LİMANLARINDA 18 MİN 585 GƏMİNİN GİRİŞİ VƏ 18 MİN 373 GƏMİNİN ÇIXIŞI RƏSMİLƏŞDİRİLİB

***2016-cı il ərzində Azərbaycan Respublikasına mənsub dəniz limanlarında 18 min 585 gəminin girişi və 18 min 373 gəminin çıxışı rəsmiləşdirilib, 3549 gəmi jurnalı təsdiq edilərək təhvil verilib və xarici dövlətin bayrağı altında üzən 1668 gəmiyə bələdçi xidməti göstərilib.***

Bu barədə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının 2016-cı il ərzində görülmüş işlərə dair hesabatında deyilir.

Sənəddə bildirilir ki, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi Tərəfindən xarici dövlət bayrağı altında üzən Azərbaycan Respublikasına səfər edən 1105 gəminin və Azərbaycan Respublikasının ərazi sularında keçən 630 gəminin naviqasiya ötürülməsi təmin edilib.

2016-ci ilin müvafiq dövrü ərzində Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən 132 gəmidə və xarici dövlətlərin bayrağı altında üzən 60 gəmidə nəzarət yoxlaması həyata keçirilib. Xarici dövlətlərin bayrağı altında üzən 60 gəmidən 26-sı Rusiya Federasiyasına, 19-u İran İslam Respublikasına, 4-ü Qazaxıstan Respublikasına və 11-i Türkmənistan Respublikasına məxsus olub. Xarici dövlətlərin bayrağı altında üzən gəmilərdə ümumilikdə 341 uyğunsuzluq halı aşkar edilib. Qeyd edilən uyğunsuzluqlardan 273-ü "Dənizdə insan həyatının mühafizəsi haqqında Beynəlxalq Konvensiya"nın (SOLAS), 15-i "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya"nın (MARPOL), 32-si "Dənizdə Əməyə dair Konvensiyası"nın (MLC), 10-u "Yük nişanı haqqında Beynəlxalq Konvensiya"nın (ICLL), 7-si "Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya"nın (COLREG) və 4-ü digər beynəlxalq konvensiyaların tələblərinin pozulması ilə əlaqədar olub.

Hesabat dövrü ərzində Dövlət Dəniz Administrasiyası tərəfindən "Gəmi və liman vasitələrinin mühafizəsinə dair" Beynəlxalq Məcəllənin (ISPS Code) tələblərinə əsasən, Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən 30 gəmidə yeniləmə və 27 gəmidə ilkin yoxlama keçirilib və bu gəmilərə "gəminin "Gəmi və liman vasitələrinin mühafizəsi haqqında" Beynəlxalq Məcəllənin tələblərinə uyğun olması haqqında Şəhadətnamə" verilib. Həmçinin, 13 gəmidə ara yoxlaması keçirilib.



Həmçinin, 2016-cı il ərzində Dövlət Dəniz Administrasiyası tərəfindən 95 gəmiyə "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə", 27 gəmiyə "Mülkiyyət hüququ haqqında Şəhadətnamə", 96 gəmiyə "Minimum heyət tərkibi haqqında Şəhadətnamə", 38 gəmiyə "Neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyətin maliyyə təminatı haqqında Şəhadətnamə", 16 gəmiyə "gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"-nin tələblərinə uyğun olması haqqında Şəhadətnamə", 146 gəmiyə "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət ilə bağlı sığorta və ya digər maliyyə təminatı haqqında Sertifikat", 10 gəmiyə "Azərbaycan Respublikasının Dövlət gəmi reyestrindən və Berbout-çarter reyestrindən çıxarış", 22 gəmiyə "Gəmi tarixinin fasiləsiz qeydlər sənədi" və 3 gəmiçilik şirkətinə "Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamə verilib.

Eyni zamanda, 37 ədəd müxtəlif təyinatlı gəmi Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində və Berbout-çarter reyestrində qeydiyyata alınıb, 13 gəmi adıçəkilən reyestrlərdə təkrar qeydiyyata alınıb və onlara müvafiq şəhadətnamələr verilib. Həmçinin, 1 gəmi Azərbaycan Respublikasının Dövlət Gəmi reyestrindən çıxarılıb.

Bundan əlavə, 1 gəminin Dənizdə insan həyatının mühafizəsinə dair təlim və məşğələ üzrə təlimatı, 66 gəminin Yanğınla mübarizə planının sxemi, 5 gəminin Yüklərin bərkidilməsi üzrə təlimatı, 3 gəminin Gəmi qəza yedək əməliyyatları planı təsdiq edilib. Eləcə də, "Kaspian Geofizikal" MMMM-in və "Saipem Contracting Netherlands" şirkətinin Əmniyyətli İdarəetmə Sistemi üzrə sənədlər toplusu təsdiq edilib.

Qeyd edilən dövr ərzində 1117 dənizçinin şəxsiyyət vəsiqəsi və 576 dənizçinin qeydiyyat kitabçası hazırlanaraq sahiblərinə təqdim edilib.

Hesabat dövrü ərzində Dövlət Dəniz Administrasiyası öz fəaliyyətində qabaqcıl ölkələrin dəniz nəqliyyatı sahəsində təcrübəsinin öyrənilməsi və bu təcrübənin Azərbaycan Respublikasının qeyd olunan sahə üzrə dövlət siyasəti və tənzimləməsinin həyata keçirilməsi istiqamətində tətbiqi məsələlərinə xüsusi yer ayırıb. Administrasiya ikitərəfli və çoxtərəfli əməkdaşlıq istiqamətlərində böyük uğurlara nail olub, təkcə Beynəlxalq Dəniz Təşkilatı ilə deyil, həmçinin Beynəlxalq Əmək Təşkilatı, Avropa İttifaqı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və sair kimi beynəlxalq qurumlarla əlaqələrini genişləndirib.

"Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"na və "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş" ilə bağlı müvafiq sənədlər Dövlət Dəniz Administrasiyası tərəfindən "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa və "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi Qaydaları"na uyğun olaraq hazırlanaraq aidiyyəti üzrə təqdim edilib və Azərbaycan Respublikası "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"na və "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş"ə qoşulmaq barədə 4 mart 2016-cı il tarixli 165-VQ nömrəli Qanun ilə qeyd edilən Konvensiya və Sazişə qoşulub.

***(Davamı 2-ci səhifədə)***

DƏNİZ

30 dekabr 2016-cı il № 85-88 (9091)

## Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği

2017-ci il üçün yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilsin.

Maddə 2. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 16 dekabr 2016-cı il.*

## Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Maddə 1. Ehtiyac meyarının həddi

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2017-ci il üçün ehtiyac meyarının həddi 116 manat məbləğində təsdiq edilsin.

Maddə 2. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 16 dekabr 2016-cı il.*



## Gəmiçilik və "Bureau Veritas"ın nümayəndələri əməkdaşlıq haqqında razılığa gəliblər

**Dekabrın 13-də dünyanın aparıcı təsnifat cəmiyyətlərindən olan "Büro Veritas"ın (Bureau Veritas) Yaxın Şərq, Türkiyə və Xəzər dənizi üzrə nümayəndələri Paskal Poilliot, Ağasəf Hüseynov və Cafer Tekkan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi ilə görüşüblər.**

Danışıq zamanı ikitərəfli əməkdaşlıq məsələləri diqqət mərkəzində olub. "Büro Veritas"ın nümayəndələri gəmiqayırma, gəmi təmiri, personalın peşəkar bacarıqlarının artırılması ilə bağlı təlimlərin keçirilməsinə dair öz xidmətlərini təklif ediblər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev rəhbərlik etdiyi qurumun son illər qazandığı nailiyyətlər haqqında qonaqlara məlumat verib. Bildirilib ki, ölkə başçısının dəstəyi ilə yenilənən donanmanın gəmiləri bu gün nəinki Xəzərdə, eyni zamanda doğma sulardan uzaqlarda da Azərbaycan bayrağı altında xidmət göstərirlər. Nüfuzlu təsnifat cəmiyyətləri ilə əməkdaşlıq təcrübəsinin artıq mövcudluğunu qeyd edən Rauf Vəliyev bu sahədə müsbət nəticələrin əldə olunduğunu bildirib.

Tərəflər 2017-ci ildə bir sıra sahələr, xüsusən də Gəmiçiliyin əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması üçün təlimlərin keçirilməsinə dair ilkin razılığa gəliblər.

1828-ci ildən fəaliyyət göstərən və hazırda dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi olan "Büro Veritas" şirkəti sertifikatlaşdırma, audit və sair xidmətlərin həyata keçirilməsi ilə yanaşı, keyfiyyət, sağlamlıq, ətraf mühit və təhlükəsizlik məsələlərinin standartlara uyğunluğuna da nəzarət edir.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC "Amerika Dəniz Gəmiçilik Bürosu" (ABS), "Rusyia Gəmiçilik üzrə Dəniz Registri", "Türk Loydu Vakfı" və "Det Norske Veritas" (DNV) kimi nüfuzlu təsnifat cəmiyyətləri ilə əməkdaşlığın nəticəsi kimi müxtəlif sertifikatlar əldə edib.

## "Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 450-VQ nömrəli Qanununun tətbiqi barədə

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 450-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 26 dekabr 2016-cı il.*

## "Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 451-VQ nömrəli Qanununun tətbiqi barədə

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 451-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 26 dekabr 2016-cı il.*

## YENİ BİRGƏ MÜƏSSİSƏ YARADILDI





**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Odessa Dəniz Mühəndisliyi Bürosu" birgə müəssisənin yaradılması haqqında razılığa gəliblər.**

"Xəzər Dəniz Mühəndisliyi Bürosu"nun yaradılması haqqında sazişi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və "Odessa Dəniz Mühəndisliyi Bürosu"nun direktoru Gennadi Yeqorov imzalayıblar.

Gəmiçilik və gəmiqayırma sahəsində yüksək keyfiyyətli, elmi biliklərə əsaslanan layihələrin hazırlanması ilə tanınan "Odessa Dəniz Mühəndisliyi Bürosu" həm də kompleks elmi tədqiqat həyata keçirir. Büronun indiyədək hazırladığı 86 layihə üzrə ümumilikdə 307 müxtəlif təyinatlı gəmi inşa edilib. Bütün layihələr gəmiçilik şirkətləri üçün iqtisadi səmərəlilik, təhlükəsizlik, insan həyatının və ətraf mühitin qorunmasını nəzərdə tutan beynəlxalq konvensiyaların tələblərinə uyğun reallaşdırılıb. Bu layihələr Böyük Britaniya Krallığının Gəmi Mühəndisləri Cəmiyyəti (RİNA), ABŞ-ın Gəmiqayırma və Dəniz Mühəndisləri Cəmiyyəti (SNAME), Dəniz qurğuları və gəmi gövdələrinin layihələndirilməsi üzrə Beynəlxalq Komitə (ISSC 2018) kimi beynəlxalq təşkilatların üzvü, Ukrayna Nəqliyyat Akademiyasının akademiki, texnika elmləri doktoru, professor Gennadi Yeqorovun rəhbərliyi ilə gerçəkləşdirilib.

İmzalanma mərasimində Rauf Vəliyev yeni müəssisənin Azərbaycanda dənizçilik sahəsində müasir mühəndislik mərkəzi olacağını bildirib. Onun sözlərinə görə, belə bir müəssisənin yaradılması "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC üçün mühüm addımdır.

Yeni yaradılan "Xəzər Dəniz Mühəndislik Bürosu" layihə-konstruktor işləri, eyni zamanda, müxtəlif təyinatlı gəmi layihələrinin hazırlanması, gəmilərin və üzən qurğuların təmiri, modernləşdirilməsi və istismarı üçün zəruri texniki sənədlərin işlənməsi, bu sahədə mütəxəssislərin hazırlanması, elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirəcək. Birgə müəssisə proqram təminatı və məlumat bazalarının yaradılmasını da təşkil edəcək.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Odessa Dəniz Mühəndisliyi Bürosu"nun mütəxəssislərinin uzunmüddətli texniki müzakirələri nəticəsində hazırlanan layihələrə əsasən cari ilin oktyabr və noyabr aylarında Bakı Gəmiqayırma Zavoduna 2 unikal Ro/Pax gəmi-bərənin və 2 tankerin tikintisi sifariş olunub.

## 2016-CI İLDƏ AZƏRBAYCANA MƏNSUB DƏNİZ LİMANLARINDA 18 MİN 585 GƏMİNİN GİRİŞİ VƏ 18 MİN 373 GƏMİNİN ÇIXIŞI RƏSMİLƏŞDİRİLİB

*(Əvvəli 1-ci səhifədə)*

Cari ilin fevral ayının 2-də imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair" Saziş 15 aprel 2016-cı il tarixli 204-VQ nömrəli Qanunla təsdiq edilib.

Həmçinin, hesabat dövrü ərzində "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (STCW) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"ya əsasən sertifikatların (diplomların) tanınması haqqında Anlaşma Memorandumu" imzalanıb.

Ötən il noyabrın 15-dən həyata keçirilməsinə başlanılan və başlıca məqsədi Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulan məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsində və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarət olan "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsinin 2016-cı il yanvarın 15-də rəsmi açılış mərasimi keçirilib.

Qeyd edilən layihə çərçivəsində 2016-cı il ərzində "Dənizlə sərnişinlərin və onların baqajlarının daşınması zamanı dəymiş ziyana görə məsuliyyət", "Azərbaycan Respublikasının ərazisində liman nəzarəti və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə bayraq nəzarətini həyata keçirən müfəttişlərin təlimatlandırılması", "Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında 1976-cı il tarixli Beynəlxalq Konvensiya və adıçəkilən beynəlxalq konvensiyanın 1996-cı il tarixli Protokolu" və digər mövzularda seminarlar, eləcə də, "Gəmilərdə əmniyyətli əməliyyatlar və çirklənmənin qarşısının alınması üçün beynəlxalq idarəetmə məcəlləsinə" dair auditor kursları, "Təlimatçılar üçün hazırlıq kursu", "Trenajor təlimatçıları və qiymətləndiriciləri üçün təlim", Gəmi Hərəkətinin İdarəetmə Xidmətinin operatorları üçün kurslar və digər təlimlər daxil olmaqla İspan mütəxəssislərinin iştirakı ilə Azərbaycan, İspaniya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, İtaliya və digər ölkələrdə ümumilikdə 11 tədbir təşkil olunub.

Hesabat dövrü ərzində Dövlət Dəniz Administrasiyasının aparatında çalışan dövlət qulluqçularının təlim-tədris məsələləri diqqət mərkəzində saxlanılıb. Belə ki, 2016-cı il ərzində Administrasiyanın əməkdaşları "Dəniz mühitinin mühafizəsi və təhlükəsizliyi", "Dəniz hüququ", "Dənizdə Əməyə Dair Konvensiyasının milli qanunvericilikdə tətbiqi" və dənizçilik sahəsini əhatə edən digər mövzular üzrə 11 beynəlxalq təlimdə və 34 beynəlxalq tədbirdə iştirak edib.

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Dövlət Dəniz Administrasiyasında 19 vakant vəzifə elan edilərək müsabiqəyə çıxarılıb və qeyd edilən müsabiqənin hər iki mərhələsindən müvəffəqiyyətlə keçmiş 6 namizəd müvafiq vəzifələrə təyin olunub.

Qeyd edilən dövr ərzində Dövlət Dəniz Administrasiyasında vətəndaşların qəbulu işinin təşkili "Vətəndaşların müraciətləri haqqında" 30 sentyabr 2015-ci il tarixli 1308-IVQ nömrəli Qanuna və Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2006-cı il tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"nin 8.13-cü bəndinə uyğun olaraq "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəhbərliyi və aparatın struktur bölmələrinin müdirləri tərəfindən vətəndaşların qəbul edilməsi qrafiki"ndə göstərilən günlər üzrə həyata keçirilmiş və zəruri hallarda vətəndaşlar qəbul günləri olmayan günlərdə də Administrasiyanın rəhbərliyi və Aparatın struktur bölmələrinin müdirləri tərəfindən qəbul edilib.

## NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ AVRASİYA ŞURASININ YARADILMASI MƏSƏLƏSİ MÜZAKİRƏ EDİLİB

***Moskvada BMT-nin Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 3-cü Nazirlər konfransı keçirilib. Tədbirdə Azərbaycanı nəqliyyat naziri Ziya Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.***

Konfransda 40-dan çox ölkənin, 28 beynəlxalq təşkilatın təmsilçiləri iştirak edib. Tədbirin gündəliyində beynəlxalq yükdaşımalarının normativ-hüquqi bazasının təkmilləşdirilməsi, yeni material və texnologiyaların tətbiq edilməsi, nəqliyyat şəbəkələrinin genişləndirilməsi, başqa regionların infrastrukturu ilə birləşdirilməsi və digər aktual məsələlər müzakirə olunub.

Rusiya Prezidenti Vladimir Putinin konfrans iştirakçılarına məktubunda bildirilib ki, Asiya-Sakit okean ölkələri üzrə tərəfdaşlarla əməkdaşlıq Rusiyanın nəqliyyat strategiyasının prioritetlərindəndir. Regionun unikal coğrafi, iqtisadi, demoqrafik və tranzit potensialı planetin bu hissəsində effektiv nəqliyyat sisteminin yaradılmasını şərtləndirir. Rusiya Prezidenti vurğulayıb ki, Asiya və Avropada nəqliyyat problemlərinin həllinə cavabdeh beynəlxalq strukturların fəaliyyətini əlaqələndirəcək Avrasiya Əməkdaşlıq Şurasının yaradılması olduqca vacib və vaxtında qəbul edilmiş qərardır.




Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov konfransda çıxış edərək ölkəmizin tranzit siyasətinin inkişaf etmiş infrastrukturun yaradılması, nəqliyyat yollarının diversifikasiyası, nəqliyyat layihələrinə dövlət dəstəyi, sərhədlərin keçilməsi prosedurlarının yüngülləşdirilməsi, malların daşınmasını asanlaşdıran logistika sistemlərinin tətbiqi və digər məsələlərin həllinə yönəldiyini bildirib. Azərbaycanın Qafqaz ərazisindən keçən Avrasiya nəqliyyat yollarının inkişafı layihələrinin fəal iştirakçısı olduğunu deyən nazir vurğulayıb ki, Gürcüstan və Türkiyə ilə birgə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi TRASEKA dəhlizinin inkişafına, Avropa və Asiyanın dəmir yolu şəbəkələrinin birbaşa birləşdirilməsinə xidmət edir. Bundan əlavə, ilin sonunadək İran İslam Respublikası ilə sərhəddə dəmir yolu sahəsinin və körpünün tikintisinin başa çatdırılacağını qeyd edən Z.Məmmədov bu layihənin Rusiya və İran dəmir yolu şəbəkələrinin Azərbaycan ərazisi vasitəsilə Şimal-Cənub dəhlizi layihəsi çərçivəsində birləşdirilməsində mühüm addım olduğunu diqqətə çatdırıb. Nazir bildirib ki, ətraf mühitin mühafizəsi, ekoloji cəhətdən təmiz nəqliyyatın yaradılması Azərbaycan dövlətinin qarşıya qoyduğu prioritet məsələlərdən biridir. Azərbaycanın nəqliyyat naziri UNESCAP-ın yeni Regional Fəaliyyət Proqramından danışaraq qeyd edib ki, nəqliyyatın əlyetərliliyi və təhlükəsizliyi, nəqliyyat əməliyyatlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi yeni sənədin əsas istiqamətlərindən olmalıdır.

Qeyd edək ki, UNESCAP nəqliyyat nazirləri konfransı hər beş ildən bir keçirilir və Asiya-Sakit okean regionunda (ASR) nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərini müəyyənləşdirir. Builki konfransın iştirakçıları ASR-də nəqliyyat sahəsində dayanıqlı inkişaf üzrə Bəyannamə, 2021-ci ilədək olan müddəti əhatə edəcək nəqliyyatın inkişafına dair Regional Fəaliyyət Proqramını təsdiq edib, nəqliyyat sahəsində əməkdaşlıq üzrə Avrasiya Şurasının yaradılması məsələsini müzakirə ediblər.

Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiya BMT İqtisadi və Sosial Şurasının beş regional komissiyasından biridir. UNESCAP-ın əsas məqsədi iqtisadi inkişaf, ticarət, ekologiya, iştirakçı ölkələrin iqtisadi əməkdaşlığının stimullaşdırılması sahələrində qloballaşma proseslərinin idarə olunmasıdır. Komissiyanın 53 üzvü, o cümlədən 9 assosiativ üzvü var. Region ölkələrindən başqa komissiyaya Fransa, Niderland, Böyük Britaniya və ABŞ da daxildir. UNESCAP əhatə etdiyi sahəyə və regionun əhalisinin sayına görə BMT-nin ən böyük komissiyası sayılır.

***Fəridə Abdullayeva***



# DƏNİZÇİLƏR HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT EDİBLƏR

***Dekabrın 10-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əməkdaşları və Azərbaycan Dövlət Dəniz Akademiyasının müəllim və tələbə heyəti Ümummilli Liderin anım günü ərəfəsində Heydər Əliyev Mərkəzini ziyarət ediblər.***











Ziyarətə gələn dənizçilərə Heydər Əliyev Mərkəzi barədə geniş məlumat verilib. Bildirilib ki, mərkəz müstəqil Azərbaycanın memarı və qurucusu, Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin, Ulu Öndərin irsinin dərindən öyrənilməsi və tədqiqi istiqamətində fəaliyyət göstərir. Həmçinin mərkəz Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, elm, təhsil, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına xidmət edən layihələr həyata keçirir.

Nadir memarlıq nümunələrindən biri olan və çoxfunksiyalılığı ilə seçilən bu mərkəz dünya memarlığı siyahısına daxil edilib. Burada rəsmi qəbullar, müxtəlif beynəlxalq konfranslar, iclaslar və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait var.

Mərkəzdə yaradılmış və məzmun orijinallığı ilə seçilən Heydər Əliyev Muzeyi ilə tanışlıq da dənizçilərdə böyük maraq doğurub. Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində istifadəyə verilən muzeydə toplanan məlumatlar ziyarətçilərə interaktiv formada təqdim edilib. Üç mərtəbədən ibarət muzeydə Ümummilli Lider Heydər Əliyevin həyat yolu, fəaliyyəti barədə maraqlı faktlar foto və videomateriallar vasitəsilə təqdim olunub. Burada dənizçilər Ulu Öndərin istifadə etdiyi xidməti avtomobillərlə də tanış olublar.

Ulu Öndərin həyat və fəaliyyəti ilə yanaşı, ziyarətçilərə müxtəlif tarixi dövrlərdə Azərbaycanın ictimai-siyasi həyatında və digər sahələrdə baş verən önəmli hadisələr barədə də məlumat verilib. Muzeyin "Şəkillərə həkk olunan ömür", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçiliyimiz, irsimiz, nailiyyətlərimiz" bölmələrində Heydər Əliyevin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual təqdim edilib. Muzeyin ən maraqlı bölmələrindən biri də Ulu Öndərin müxtəlif ölkələrin rəhbərləri ilə görüşlərini əks etdirən multimedia zalıdır. Buradakı qlobusda ölkələrin üzərinə toxunmaqla arxa fonda Ulu Öndər Heydər Əliyevin dövlət başçıları ilə görüşlərinin və Ümummilli Liderə təqdim olunan hədiyyələrin fotoları əks olunur. Bundan əlavə, zalda Ulu Öndərin hərbi və mülki geyimləri, o cümlədən onun iş masası da sərgilənir. Dahi şəxsiyyətin müxtəlif illərdə təltif olunduğu ordenlər və medallar ekspozisiyanın ən qiymətli nümunələri sırasındadır.

Müasir Bakının simvolu olan Heydər Əliyev Mərkəzinə ziyarət tədbir iştirakçılarının hər birində xoş təəssürat yaradıb.



## Ulu Öndərin işıqlı xatirəsi bütün Azərbaycan xalqı kimi, dənizçilərin də qəlbində əbədi yaşayacaqdır







***Ulu Öndər Heydər Əliyevin anım günü ölkəmizin hər yerində olduğu kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində də silsilə tədbirlərlə qeyd edildi. Dənizçilərin dahi rəhbərin xatirəsinə sonsuz ehtiramını təcəssüm etdirən belə tədbirlərdən biri də dekabrın 12-də Azərbaycan Dövlət Dəniz Akademiyasında keçirildi.***

Mərasim iştirakçıları əvvəlcə Ulu Öndərin akademiyanın binasındakı büstü önünə əklil qoyub, unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev giriş nitqində ən ekstremal vəziyyətlərdə yeganə doğru qərar qəbul etmək bacarığına malik Ulu Öndər Heydər Əliyevin zəngin və şərəfli həyat yolundan, Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz xidmətlərindən, həm sovet dövründə respublikamıza rəhbərliyi zamanı, həm də müstəqillik illərində ölkə prezidenti kimi gördüyü misilsiz işlərdən bəhs etdi. Bildirdi ki, müstəqilliyimizin ilk illərində siyasi müdrikliyi, zəngin dövlətçilik və idarəçilik təcrübəsi ilə xalqı parçalanmaqdan, ölkəni məhv olmaqdan xilas edən Ulu Öndər qısa vaxtda Azərbaycanın dünyəvi, sivil, demokratik dövlət kimi dünyada öz layiqli yerini tutmasına nail oldu. Bu gün bölgənin lideri olan müstəqil Azərbaycan məhz Ulu Öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla irəli addımlayır, özünün sabit və davamlı inkişafı ilə dünyada nüfuzunu durmadan artırır.

Azərbaycan Dövlət Dəniz Akademiyasının da dahi Heydər Əliyev dühasının uzaqgörən siyasətinin nəticəsi olaraq yarandığını qeyd edən rektor artıq Dəniz Universitetləri Beynəlxalq Assosiasiyasının üzvü olan ADDA-nın qısa müddətdə qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrildiyini, ixtisaslı ali təhsilli dənizçi kadrların hazırlanması sahəsində yüksək nəticələr əldə etdiyini iftixar hissi ilə vurğuladı.

"Gəmi elektrotexnikası" fakültəsinin birinci kurs magistri Şahvələd Qiyasov "Heydər Əliyev və gənclər strategiyası", "Gəmi mexanikası fakültəsinin ikinci kurs tələbəsi Sahib Sultanlı "Dünya liderləri Heydər Əliyev dühası haqqında" məruzələrində gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edən Ümummilli Liderin dövlət gənclər siyasəti istiqamətində gördüyü işlərdən, gənclərə göstərdiyi diqqət və qayğıdan da ətraflı söz açdılar. Bildirdilər ki, Ulu Öndər Azərbaycan gəncliyini Vətənə sədaqətli, dövlətə bağlı, yüksək intellektli görmək istəyir, xüsusi qabiliyyəti ilə seçilən gəncləri xaricdə təhsil almağa göndərirdi.

Rektorun müşaviri Vüqar Sadıqov "Heydər Əliyev və Azərbaycanda gəmiçilik" adlı məruzəsində bildirdi ki, ölkəmizdə digər sahələr kimi gəmiçiliyin inkişafı da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider fəaliyyəti dövründə dəniz nəqliyyatının inkişafına, donanmanın yeni gəmilərlə möhkəmləndirilməsinə həmişə xüsusi diqqət yetirirdi. V.Sadıqov xüsusi ilə qeyd etdi ki, ölkəmizin və xalqımızın taleyində oynadığı misilsiz rolun, gördüyü böyük işlərin əhəmiyyəti illər ötdükcə daha aydın görünən Ümummilli Lider Heydər Əliyevin işıqlı xatirəsi bütün Azərbaycan xalqı kimi, dənizçilərin də qəlbində əbədi yaşayacaqdır.

Tədbirdə dahi şəxsiyyətə həsr olunmuş şeirlər səsləndirildi, həyat və fəaliyyətindən bəhs edən filmə baxış keçirildi.

***Tahir DADAŞOV***

# AZƏRBAYCAN "ŞİMAL-CƏNUB" BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN APARICI İŞTİRAKÇISINA ÇEVRİLİB

***"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Şərqi Asiya ölkələri ilə Avropanı əlaqələndirən irihəcmli layihədir. Bu layihənin əsası 2000-ci ildə Sankt-Peterburq şəhərində Rusiya, İran və Hindistan tərəfindən qoyulub. Sonralar layihəyə Qazaxıstan, Türkmənistan, Tacikistan, Belarus, Ukrayna, İordaniya, Bolqarıstan da qatıldılar. Azərbaycan 2005-ci ildə bu layihəyə qoşuldu və çox keçmədən aparıcı iştirakçıya çevrildi. Qitələri əlaqələndirəcək bu dəhliz özündə bir neçə marşrutu birləşdirir. Dəhlizin Qərb marşrutu üzrə yüklərin daşınması məsafəni qısaltsa da səmərəsiz idi və elə buna görə də bir müddət Hindistandan Rusiyaya, oradan isə Avropaya yüklərin daşınması dayandırıldı.***

Belə ki, dəhlizin Qərb marşrutu üzrə Hindistanın Mumbai limanından gəmi ilə çıxan yüklər Ərəbistan dənizi ilə İranın Fars körfəzi sahilindəki Bəndər-Abbas limanına çatdırıldı. Buradan qatar və yaxud da avtomobillə yüklər Xəzər dənizinin İran sahilindəki Ənzəli limanına gətirilirdı. Ənzəli limanında isə bir də gəmilərə yüklənərək Xəzər dənizi ilə Rusiyanın Həştərxan limanına daşınırdı. Bu limanda da yüklər boşaldılır və qatara yüklənərək təyinatı üzrə həm Şimali, həm Qərbi, həm də Şərqi Avropa ölkələrinə aparılırdı.

Azərbaycan bu layihəyə qoşulduqdan sonra isə Prezident İlham Əliyevin irəli sürdüyü təklif daha səmərəli və cəlbedici oldu. Bu səmərəlilik ondan ibarətdir ki, yüklərin daşınması xərci azalır və çatdırılması vaxtı qısalır. Yəni, yüklər gəmi ilə Hindistandan Mumbai limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatara yüklənir və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülür və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Avropa ölkələrinə çatdırılır. Göründüyü kimi, yüklər Xəzər sahilində İran və Rusiyanın limanlarında təkrar boşaldılıb-yüklənmir. Bu variantda yüklər təkrar gömrük rəsmiləşdirilməsindən də azad olur. Bildiyimiz kimi, Azərbaycan ilə Rusiyanın dəmir yolları arasında hələ SSRİ dövründən əlaqə mövcuddur ki, bu da əlavə xərc çəkib dəmir yolu inşa etmək ehtiyacını yaratmır.



Cari ilin avqustunda Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Həsən Ruhaninin Bakıda keçirdikləri üçtərəfli görüş zamanı "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi məsələsinə də toxunulub və tərəflər işlərin tezliklə yekunlaşdırılması haqqında razılıq əldə ediblər. 2015-ci ilin dekabrında Prezident İlham Əliyev "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən yeni avtomobil yolları salınmağa başlanıb və dəmir yollarında əsaslı təmir işləri həyata keçirilib.

Qeyd etmək lazımdır ki, Azərbaycan üzərinə düşən öhdəliyi artıq yerinə yetirib. Azərbaycanın və İranın dəmir yollarını birləşdirəcək Astara (Azərbaycan)-Astara (İran) 8,7 kilometrlik dəmir yolu körpüsü inşa edilib və bu yaxınlarda istismara veriləcək. Ümumiyyətlə, Azərbaycan ərazisindən keçən 511 kilometr dəmir yolu tam hazır vəziyyətdədir.

İranda isə Qəzvin-Rəşt dəmir yolu xətinin tikintisi sürətlə davam edir. Yol üzrə 22 tunel və 15 xüsusi körpünün inşası nəzərdə tutulub. Tunellər artıq hazırdır, 9 körpünün isə əsası qoyulub. Bu yolun 2017-ci ilin martında istismara veriləcəyi gözlənilir. Yolun Rəşt-Astara hissəsində də işlər davam edir və artıq tunellər və körpülər tikilib başa çatdırılıb. İranın Azərbaycandakı keçmiş səfiri Möhsün Pakayinin sözlərinə görə, 400 kilometrlik Qəzvin-Rəşt-Astara dəmir yolunun Rəşt-Astara hissəsinə əlavə investisiya lazımdır. Səfir onu da bildirib ki, Çexiya və Macarıstan bu layihəyə investisiya qoymağa hazırdır.

Artıq bu marşrut İran, Hindistan, Rusiya və Azərbaycanla yanaşı, Fars körfəzi və Orta Asiya dövlətlərinin, həmçinin Çinin də marağına səbəb olub.

Nəzərə çatdıraq ki, Çin də bu marşrutla maraqlanıb və iqtisadi-texniki əsaslandırmadan sonra investisiya yatıracağına qərar verəcək. Çinin yaxın gələcəkdə mallarını məhz sözügedən dəhlizin Qərb marşrutu ilə dünya bazarına çıxaracağı şübhə doğurmur ki, bunun da önəmli səbəbi var. Məsələ ondan ibarətdir ki, Çinin gəmiləri Malayziyanın Malay yarımadası ilə İndoneziyanın Sumatra adası arasındakı Malakka boğazından keçərək dünya okeanına çıxırlar. Hind okeanı ilə Sakit okeanı birləşdirən bu boğaz iqtisadi baxımdan Cənub-Şərqi Asiya ölkələri üçün olduqca əhəmiyyətlidir. Hər il Malakka boğazından bu regionun müxtəlif ölkələrinə məxsus 50 mindən çox gəmi keçir. Lakin burada məskunlaşmış dəniz quldurları gəmilərə hücum edərək onları qarət edirlər. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünyanın müxtəlif regionlarında baş verən qanlı münaqişələr dəniz quldurlarının sayını artırmışdı və 2006-cı ildən başlayaraq Malakka boğazından keçən gəmilərin qarət olunması halları çoxalmışdı. Dəniz quldurları gəmiləri qarət etməklə yanaşı, heyət üzvlərini də girov götürərək yüksək məbləğdə pul tələb edirlər. Onu da nəzərə çatdırmaq lazımdır ki, yay aylarında Sumatra adasında baş verən meşə yanğınları nəticəsində boğazın üzəri sıx dumana bürünür və 200 metr irəlini görmək olmur. Belə vəziyyət həm qəzalara səbəb olur, həm də dəniz quldurlarını təqib etməyə imkan vermir. Bu problem Çini ciddi düşündürür.

Qazaxıstan-Türkmənistan-İran dəmir yolu xətti də istifadəyə verilib. Yolun Qazaxıstan-Türkmənistan hissəsi 2013-cü ildə, Türkmənistan-İran hissəsi isə 2014-cü ildə prezidentlər Həsən Ruhani, Qurbanqulu Berdiməhəmmədov və Nursultan Nazarbayevin iştirakı ilə açılıb. Orta Asiya respublikaları üçün bu yolun mahiyyəti ondadır ki, onlar Fars körfəzinə çıxış əldə edəcəklər.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizindən kənar daşınan yüklər Hindistandan çıxaraq 4 dənizdən keçib Almaniyaya çatdırılır. Mumbai limanından çıxan yüklü gəmilər Ərəbistan dənizinə, Fars körfəzindən keçərək Qırmızı dənizə, Süveyş kanalından keçərək Aralıq dənizinə, Hibraltar boğazından Atlantik okeanına, La-Manş boğazından Şimal dənizindəki Almaniya limanlarına daxil olurlar. Bundan başqa, Süveyş kanalının ötürmə qabiliyyəti zəif olduğundan gəmilər bəzən həftələrlə növbə gözləməli olurlar. Dənizlərdəki fırtınaları, ərazi sulardan keçmək üçün ödənilən tranzit haqlarını və gömrük terminallarında yubanmaları nəzərə alsaq, bu yolun uzun, bahalı, üzücü və təhlükəli olduğunu görərik. Hindistandan Finlandiyaya qədər uzunluğu 7200 kilometr olan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yüklərin daşınma müddəti 2 dəfədən çox azalır. Mütəxəssislərin fikrincə, dəhliz Süveyş kanalından fərqli olaraq yolu 800 kilometr azaldır ki, bu da müqayisədə yüklərin 20 gün tez çatdırılması deməkdir. Bütün bunlar isə hər 15 ton yükün daşınmasında 2500 dollar vəsaitə qənaət edilməsinə gətirib çıxarır.

Daşınan yüklərə gəldikdə, qeyd etmək lazımdır ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin iştirakçısı olan hər bir dövlətin ixrac və idxal potensialı var.

Dünya Ticarət Təşkilatının hesabatına görə, Hindistanın xarici ticarət dövriyyəsi 1 trilyon dollara yaxınlaşıb. Hindistan nefti, sənaye avadanlıqlarını, müxtəlif kimyəvi maddələri, dəmiri, poladı və başqa malları idxal edir. İxraca gəldikdə isə, qeyd etmək lazımdır ki, dünya bazarına çıxarılan çayın 13 faizini Hindistan ixrac edir. Dünyada qəhvə ixracına görə bu ölkə 6-cı yerdədir. Bunlardan başqa, neft-kimya məhsulları, dərman preparatları, maşınqayırma və nəqliyyat avadanlıqları, yüngül sənaye və kənd təsərrüfatı məhsulları da Hindistanın ixrac potensialına daxildir.

İran ilə Qərb dövlətləri arasında nüvə proqramına dair əldə edilən razılaşmanın nəticəsində sanksiyaların aradan qaldırılması bu dövlətin idxal və ixrac imkanlarını artırıb. Hər il İran Rusiyadan 1,5 milyon tondan çox buğda və digər dənli bitkilər, müxtəlif növ filizlər, taxta-şalban, avadanlıq idxal edir. Eyni zamanda, İran Rusiyaya meyvə-tərəvəz, kənd təsərrüfatı malları ixrac edir. 2014-cü ildə İranla Rusiya arasında ticarət dövriyyəsi 5 faiz artaraq 1,68 milyard dollara çatıb. Rusiya İrana 2014-2015 ildə buğda ixracını iki dəfə artıraraq 2,8 milyon tona çatdırıb. Bütün bu yük daşımalar isə Azərbaycan üzərindən həyata keçiriləcək. Qazaxıstan isə taxıl ixrac edir. Təsadüfi deyil ki, mütəxəssislər ilkin mərhələdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə ildə 7 milyon, gələcəkdə isə 22-25 milyon ton yükün daşınacağını bildirirlər.

Bu gün dünya bazarında neftin qiymətinin düşməsi iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun inkişaf etdirilməsini tələb edir. Prezident İlham Əliyevin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə xüsusi diqqət ayırmasının əsasında dayanan amil ondan ibarətdir ki, Azərbaycan logistika və tranzit mərkəzə çevrilsin. Bu amil dövlət büdcəsinə əlavə vəsait gəlməsi ilə yanaşı, iş adamlarının fəaliyyətini stimullaşdıracaq, ölkənin ixrac potensialını artıracaq. Beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşmasında Azərbaycanın əhəmiyyətli rol oynaması onun qlobal iqtisadiyyata daha səmərəli inteqrasiyasına, qeyri-neft sektorunun inkişafına, modernləşməyə, iqtisadi islahatların sürətlənməsinə də impuls verəcək.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Qərb marşrutunun işə düşməsi nəinki region ölkələrinin iqtisadi inkişafına təkan verəcək, eyni zamanda, həmin ölkələr siyasi sabitlik üçün də zəmanət əldə etmiş olacaqlar.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan indiyədək məhz "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Trans-Anadolu (TANAP) neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub Qaz Dəhlizi" layihələri ilə dünyanın diqqətini çəkib. Növbəti dəfə isə dövlətimiz "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin işləməsi üçün atdığı addımlarla gündəmə gəlib. Azərbaycanın bu təşəbbüsləri ölkəmizin qlobal müstəvidə yerini və rolunu müəyyənləşdirməklə yanaşı, potensialını da nümayiş etdirir.

***Rabil Kətanov***

# "GECƏ NEFT DAŞLARINA YAXINLAŞANDA KAPİTANIN SƏHHƏTİ PİSLƏŞDİ..." - DƏNİZ ADAMININ İLGİNC XATİRƏLƏRİ

***"1973-cü ilin noyabrı idi. Onda rayonda olurduq. Səhər saat 5-də bacım oyatdı ki, gözün aydın, oğlun olub. Səhər "Kirovabad" gəmisini Qara dənizə aparmalıydıq. Vaxt yox idi. Tezdən Bakıya qayıtmalıydım. Oğlumu görə bilmədim. Birbaşa Bakıya gəldim. Oğlumu 7 ay sonra gördüm. Yekə oğlum varmış!"***

Müsahibimiz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin qocaman kapitanı Axundov Muxtar Bəhram oğludur. Deyir, dənizçi olmaq ailədən uzaq qalmaq deməkdi: "Aylarla uşaqlarının üzünü görmürsən. Evin bütün yükü xanımın üstünə düşür. 3 övladım var: iki oğlan, bir qız. Hər üçü doğulanda evdə olmamışam".

1946-cı ildə Salyanda dünyaya göz açıb, orada orta təhsil alıb. Gəmi kapitanı olmaq onun uşaqlıq arzusu olub.

- Evimiz Kürün lap sahilində idi. Aramızda 20 metr məsafə vardı. Kürdə işləyən gəmilərə həvəslə baxardım. Atam "15 yaşlı kapitan" adlı kitab hədiyyə etmişdi. Kitabı oxuyandan sonra artıq dənizçi olmağa qərar vermişdim. Atamın bibisi qızı istəmirdi mən dənizçi olum. Deyirdilər, sən yaxşı oxuyursan, niyə dənizə gedirsən? Hüquqşünas, yaxud həkim ol. Səkkizinci sinifdə gəldim Bakıya imtahan verməyə. Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbinə. İmtahanları verdim, amma adım məktəbə qəbul olunanların siyahısında çıxmadı. Qayıtdım rayonumuza, doqquzuncu sinfi oxumağa. Üstündən bir ay keçdi. Sovet dövründə bizi pambığa aparırdılar. Atamın bibisi televizorda eşidib ki, həmin məktəb yenidən qəbul elan edir. Bunu mənə deyincə, anama dedim, mən gedirəm Bakıya. Məktəbin direktoru Məcid Qardaşov idi. Getdim onun yanına. Mənə dedi ki, onda sən ol mexanik. Dedim, yox, mən gələcəkdə kapitan olmaq istəyirəm. Hündür kişi idi, əsəbiləşib yerindən qalxdı. Dedi, mən də mexanikliyi bitirmişəm, bu məktəbin direktoruyam. Dedim, yox, mən kapitan olmaq istəyirəm. Kişi hirsləndi, dedi, onda get təzədən imtahan ver. Gəldim ədəbiyyat müəlliminin yanına. Dedi, oğlum, mən səndən bir dəfə imtahan götürmüşəm, sən də məndən bir dəfə qiymət almısan. İkinci dəfə imtahan verməyə ehtiyac yoxdu. Səhəri gün riyaziyyat müəlliminin yanına getdim. Əmirxanov məni görən kimi tanıdı. Dedi, sən qiymət almısan. Bəs sən niyə keçməmisən, oğlum? Dedim, bilmirəm, adım siyahıda çıxmayıb. Mənə dedi, gəl. Getdik, məktəbin tədris hissə müdiri Yaqub müəllimin yanına. Dedi, bu uşaq hər iki imtahandan əla qiymət alıb, amma məktəbə qəbul olmayıb. Bu necə olur? İmtahan komissiyasının sədrini çağırdılar. Bakıxanov müəllim dedi ki, bilirsiniz, bu uşağın valideynləri istəmir o dənizçi olsun. Sən demə, atamgil məktəbə zəng ediblərmiş. Direktor məndən soruşdu ki, oğlum, nə fikirləşirsən? Dedim, mən dənizçi olmaq istəyirəm!








Və 1962-ci ilin oktyabrından dərsə başlayır.

- 63-cü ildə Bakı Dəniz Yolları Məktəbinin Gəmi sürücülüyü şöbəsinin 1-ci kursunu bitirən uşaqların dəniz praktikası yelkənli gəmiyə düşdü. Xerson Dəniz Yolları Məktəbinin gəmisi vardı - "Tovariş", 160 tələbə arasından əlaçı tələbələrdən 40 nəfəri ora göndərdilər. Bizə "dördüncü rota" deyirdilər. 4 ay Qara dənizin limanlarında praktikada olduq. Qalan uşaqlar Xəzər dənizində. Xəzər Dəniz Gəmiçiliyinin quru yük və neft daşıyan 20-yə yaxın gəmisi Qara dənizdə işləyirdi. 4-cü kursu "Kaspi", "İnjener Belov", "Alma-ata" gəmilərində praktika keçdim. Ondan sonra Bakı-İran xəttində matros işlədim. 1967-ci ilin fevralında Bakı Dəniz Yolları Məktəbindən məzun oldum. 68-ci ilin mayında təkrar imtahan verdim və 12 min tonluq "Tsurupa" tankerində kapitanın üçüncü köməkçisi işləməyə başladım. 69-cu ilin aprel ayında həmin gəmidə oldum ikinci köməkçi, sonra baş köməkçi.





Nəhayət, 1979-cu ildə uzaq səfərlər kapitanı diplomu alır və kapitan kimi sərbəst gəmi idarə etməyə başlayır.

- Həmin gəmi indi Rəşid Behbudovun adını daşıyır. Quru yük gəmisi idi. Bu gəmiylə Hind okeanı, Atlantik okeanını üzüb keçmişəm. 1973-dən 79-a qədər kapitanın baş köməkçisi olmuşam. Mənim müəllimlərim təcrübəli kapitanlar olub deyə, özüm kapitan olan zaman artıq təcrübə yığmışdım. "Tsurupa" gəmisiylə Bakı-Neft Daşları-Bakı istiqamətində neft daşıyırdıq. Kapitanın ikinci köməkçisi idim. Axşam saat 10 olardı. Neft Daşlarına çatmağımıza 2 saat yarımlıq məsafə qalanda, gəminin həkimi zəng elədi ki, kapitanın vəziyyəti pisdi. Gəmini idarə edə bilməz. Zəng elədim gəmiçiliyin rəisinə. Dedi, geri qayıdın. Dedim, kapitan bilsə, acığı tutacaq. Dedi, sən ona heç nə demə. İlk dəfə 12 min tonluq tankerlə təkbaşına indiki Ağ şəhərin limanına yan aldım. Yeni kapitan gəldi, soruşdu, bu gəmini kim yan alıb? Dedim, mən. Təəccübləndi. Dedi, özün yan almısan, özün də çıx *(gülür)*.

**- Boş gəmini idarə etmək çətindi, ya yüklü?**

- Gəmi boş olsa da, dalğaya qarşı ballast qorumaq üçün su götürürsən. Təcrübəli kapitan üçün bunun elə də fərqi yoxdu. Kapitan dövlətin təyin olunmuş nümayəndəsidir. Həm gəmiyə, həm gəminin heyətinə, həm sərnişinlərə, eyni zamanda daşıdığı yükə cavabdehdir. Üstəlik, gəminin üstündə dövlətinin bayrağı dalğalanır. Kapitan elə bir adam olmalıdır ki, dövlətin nümayəndəsi olduğunu unutmasın. Baltik dənizində "Merkuri" gəmisinin kapitanı idim. 1992-ci ildən 97-yə qədər.

"Daşkənd" gəmisiylə ən uzaq səfərlərindən birinə çıxır.

- Portuqaliyanın Avera limanından çıxdım, getdim Bombeyə. Atlantik okeanı, Aralıq dənizi, Qırmızı dənizdən keçib çatdıq Dubaya. Dubayda yükü boşaltdım, kükürd doldurduq. Sonra İranın Bəndər Abbas şəhərindən kükürd yükləyib, getdik Bombeyə (indiki Mumbai). Orda təkrar yükü boşaldıb, gəldik Hindistanın Kandla şəhərinə. Kandlada küncüd tumu yükləyib qayıtdıq Türkiyənin Mersin şəhərinə.

**- Təhlükəli yüklər var?**

- Yüklərin daşınması haqda beynəlxalq konvensiya var. Bir neçə təhlükəli yüklər var, onlar da 9 qrupa bölünür. Bundan əlavə, hər gəminin də yük daşımasına görə sertifikatı olur ki, bu gəmi hansı yükü daşıya bilər. Tankerlər neft, benzin, xammal, mazut və. daşıyır. Pambıq təhlükəli yük sayılır. Pambıq küplərdə olur. Harasa sürtülə bilər, alışar. Sonra taxıl. Gəmi hərəkət edən zaman bərk dalğaya düşsə, yük gəminin tarazlığını poza bilər.

**- Çətin yollar?**

- Dardanel və Bosfor boğazını keçəndə adətən bələdçi götürməlisən. Amma biz bələdçisiz keçirdik. Ona görə də o vaxt biz Odessada imtahan vermişik. İndi qaydalar daha da yüngülləşib. Gəmilər sahildən idarə olunur. Məsələn, Süveyş kanalını keçənə qədər 3 dəfə bələdçi dəyişirsən. Bu kanalı sərbəst keçə bilməzsən. Çünki o kanal birtərəflidir. Bir karvan - 25 gəmi Port Səiddə lövbər salıb gözləyir. Hər gəmiyə də bir bələdçi verilir. Kanaldakı kanal işarələri fosforlu olur. Sənin gəminin burun hissəsinə projektor qaldırırlar ki, gecə keçəndə o işıq salır. Port Səiddən getdin, İsmailiyyəyə çatanda o biri karvan gəlib keçməlidir. 15-16 gəmi gözləyir, o karvan keçir, sonra sən keçirsən.

Kapitanın sözlərinə görə, dəniz sularında hansısa gəmiyə limana girməyə yol verməsən, onun da cəzası var: "Elə vaxt olub, kapitanın diplomlarını əlindən alıblar. Sürət həddi də var. Dar yerləri – Bosfor, Dardaneli keçəndə sürəti azaltmaq lazımdır. Açıq dənizdə 22-24 uzellə hərəkət edən gəmi, dar yerlərdən keçəndə sürəti 10-12 uzelə qədər endirməlidir. (Dəniz qaydasında 1 uzel 1852 metrə bərabərdir)".

**- Neçə dil bilirsiniz?**

- Sözsüz, kapitan ingiliscə sərbəst danışmalıdır. Rus dilini də bilirəm. Bir də orta səviyyə polyakca. "Merkuri-2" gəmisində kapitan olan vaxt marşrut beləydi: Polşanın Qdınya limanı və İsveçin Karlskruna limanı. 12-dən çox səfər eləmişdik. Onda liman tərəfindən dedilər ki, kapitan, polyak dilində imtahan versəniz, limana sərbəst girə bilərsiniz. Balıqçı və köməkçi gəmilər var. Axı onlar ingiliscə bilmirlər? Onlarla yerli dildə danışmaq lazımdır. Onda Qdınya limanında polyak dilində imtahan verdim və limana sərbəst girib-çıxırdım.

"Hansı dənizçi ki, Xəzərdə işləməyib, o, kapitan ola bilməz", - deyir.

- Xəzər dənizi ilin çox vaxtı fırtınalı olur. Dünya üzrə ən fırtınalı dəniz Oxot, Xəzər, bir də Biskay körfəzidir. Hollandiyaya gedəndə Biskayda 2-3 dəfə fırtınaya düşmüşəm.

20 ildən çox kapitanlıq etmiş Muxtar Axundov indiyə qədər 200-dən çox səfər edib, 30-a yaxın ölkədə olub. "Tərəqqi" medalı alıb, prezident təqaüdçüsüdür. Çoxlu diplomlarla təltif olunub. Hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədrinin baş müşaviri işləyir.

***Lent.az***

# ƏHALİNİN SİYAHIYAALINMASINA YARDIM ÜZRƏ MƏRKƏZİ KOMİSSİYA YARADILIB

***Azərbaycan Respublikasının Nazirlər Kabineti "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" Qərar qəbul edib.***

Qərara əsasən, 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılıb. Həmçinin Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın tərkibi təsdiqlənib.



Komissiyasının sədri Baş nazirin müavini Elçin Əfəndiyev, Komissiya sədrinin müavini Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Komissiyanın katibi isə Statistika Komitəsi Aparatının rəhbəri Cabbar Musayev təyin olunub. Bundan başqa, Komissiyanın üzvləri isə maliyyə nazirinin müavini İlqar Fətizadə, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, müdafiə nazirinin müavini Kərim Vəliyev, daxili işlər nazirinin müavini İsmət Əliyev, ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi Ceyhun Həsənov, fövqəladə hallar nazirinin müavini Faiq Tağızadə, xarici işlər nazirinin müavini Nadir Hüseynov, səhiyyə nazirinin müavini Elsevər Ağayev, təhsil nazirinin müavini Firudin Qurbanov, Nəqliyyat Nazirliyi Aparatının rəhbəri Cavid Nəcəfov, Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini Rüstəm Şahbazov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Gəray Fərhadov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini İsmayıl Bağırov, Dövlət Miqrasiya Xidməti rəisinin müavini Pərviz Musayev, Dövlət Sərhəd Xidməti rəisinin müavini Azad Ələkbərov, Bakı şəhər icra hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini İlyas Əliyev və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini Rəşad Nəsirov təyin ediliblər.

Qərara görə, Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması 2019-cu il 1 oktyabr tarixli saat 00:00 vəziyyətinə, sorğu yolu ilə aparılacaq. Əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2018-ci il 1-10 oktyabr tarixlərində Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçiriləcək. Əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsinə yerli icra hakimiyyəti orqanları və Dövlət Statistika Komitəsi məsuliyyət daşıyırlar. Dövlət Statistika Komitəsinin hesablamaları əsasında əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması, siyahıyaalmaya cəlb ediləcək şəxslərin əmək və xidmət haqlarının ödənilməsi və digər təşkilati məsələlərin həllini təmin etmək məqsədilə 2018-2022-ci illərin dövlət büdcəsində hər il müvafiq məbləğdə vəsait nəzərdə tutulacaq.

Dövlət Statistika Komitəsinə əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsini, yekunlarının işlənilməsini, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə siyahıyaalma qrupunun yaradılmasına icazə verilib. Qrupun fəaliyyəti Maliyyə Nazirliyi ilə 2017-2022-ci illər üzrə hər il üçün razılaşdırılmış işçilərin say həddi və əməkhaqqı fondu daxilində müddətli əmək müqaviləsi ilə işçilər cəlb olunmaqla təmin ediləcək.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Siyahıyaalma qrupunun işçilərinin aylıq vəzifə maaşlarının və siyahıyaalma məntəqələri işçilərinin xidmət haqlarının məbləğlərini müvafiq işçilərin vəzifə maaşları məbləğlərinə uyğunlaşdıraraq 1 (bir) ay müddətində təsdiq etməsi tapşırılıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının şəhər, rayon, şəhər rayonlarının icra hakimiyyətləri isə siyahıyaalma ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədilə 2016-cı ilin sonunadək Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavininin, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçıları müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradacaqlar.

Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Miqrasiya Xidməti və Dövlət Sərhəd Xidməti Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə tabeliklərindəki rejimli obyektlərdə olan şəxslərin siyahıyaalınmasını və siyahıyaalma materiallarının Statistika Komitəsinə təqdim etməlidirlər.

Xarici İşlər Nazirliyinə isə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə işləmək, təhsil almaq və digər məqsədlərlə xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə siyahıyaalınmasını və siyahıyaalma materiallarının Statistika Komitəsinə təqdim olunmasını təmin etmək tapşırılıb.

Nəqliyyat Nazirliyi, "Azərbaycan Hava Yolları", "Azərbaycan Dəmir Yolları" və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətləri, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti orqanları Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə mehmanxanalarda, qatarlarda, gəmilərdə, hava və dəniz limanlarında, vağzallarda və stansiyalarda hərəkətdə olan əhalinin siyahıyaalınmasının aparılması üçün zəruri tədbirlərin görülməsini təmin etməlidirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi siyahıyaalma kadrlarına olan tələbatın ödənilməsi məqsədilə rayon (şəhər) məşğulluq orqanlarında işaxtaran kimi qeydiyyata alınmış uçot sahəsində səriştəsi olan vətəndaşların əhalinin siyahıyaalınmasının keçirilməsinə cəlb edilməsində Dövlət Statistika Komitəsinə köməklik göstərməlidir. Əmlak Məsələləri Dövlət Komitəsi öz xərcləri çərçivəsində şəhər, rayon və şəhər rayonlarının yaşayış məntəqələrinin 1:5000 miqyasında (ərazisi 10 kvadratkilometrə qədər olan yaşayış məntəqələrinin 1:2000 miqyasında) sxematik planlarını və rayonların 1:100000 miqyasında (əhalinin sıx yaşadığı ərazilərdə 1:50000 miqyasında) sxematik xəritələrini hazırlayıb kağız və elektron formada 2018-ci il sentyabr ayının 1-dək (Qəbələ rayonu üzrə 2017-ci il sentyabr ayının 1-dək) Dövlət Statistika Komitəsinə təqdim etməlidir.



# ELEKTRON BİLET SİFARİŞİNƏ MARAQ ARTIR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin elektron bilet sifarişi ilə bağlı sentyabr ayından tətbiq etdiyi xidmətə maraq artıb.***

Ölkəmizdən keçən beynəlxalq nəqliyyat marşrutlarına cəlbediciliyin yüksəldilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə yük və sərnişin daşımalarında sənədləşmənin sadələşdirilməsi və operativliyin artırılması məqsədi ilə gerçəkləşdirilən bu xidmət növündən yararlananların sayında artım müşahidə olunmaqdadır.

Xidmətdən istifadə üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin internet saytında onlayn ödəniş üçün müvafiq xanalar doldurulmalıdır.

Ro-Ro və bərə gəmiləri ilə müxtəlif tipli avtomobillərin və sərnişinlərin daşınması sifarişini aşağıdakı internet ünvana daxil olmaqla etmək mümkündür. https://public.acsc.az/online/payment/index/az/

Yükün növü, yüklənmə və gediş limanları, ödəyən şəxs və daşınan nəqliyyat vasitəsi barədə məlumatlar daxil edildikdən sonra biletin qiyməti avtomatik hesablanır. Bu sistem istifadəçi üçün vaxt itkisinin qarşısının alınması baxımından çox əlverişlidir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC müasir texnologiyaların tətbiqi ilə bağlı səylərini bundan sonra da davam etdirəcək.

# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI AÇIQLANIB

**İlin əvvəlindən Azərbaycan əhalisinin sayı 88,2 min nəfər və ya 0,9 faiz artaraq 2016-cı il noyabr ayının 1-nə 9793,8 min nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin sıxlığı bir kvadratkilometrə 113 nəfər olub. Ümumi əhalinin 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinləri, 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardır. Hər 1000 kişiyə hazırda 1007 nəfər qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə 133,3 min, yaxud hər gün orta hesabla 437 doğulan körpə qeydə alınıb və



əhalinin hər 1000 nəfərinə bu göstərici 16,5 təşkil edib. Doğulan körpələrin 53,3 faizi oğlan, 46,7 faizi isə qız uşaqlarıdır. Körpələrin 2306-sı əkiz, 57-si isə üçəm doğulanlardır.

# DƏNİZ NƏQLİYYATINDA MƏSULİYYƏTİN ARTIRILMASI ÜZRƏ TƏLİM BAŞA ÇATIB





***Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsi çərçivəsində keçirilən təlim başa çatıb.***

Administrasiyanın mətbuat xidmətindən bildirilib ki, bu təlim, "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın tələbləri əsasında, Beynəlxalq Dəniz Təşkilatının "Dənizçilərin bilik və bacarığının yoxlanılması, qiymətləndirilməsi və onlara sertifikat verilməsi" adlı kursuna uyğun olaraq həyata keçirilir.

Təlim zamanı bilik və bacarığın yoxlanılması, qiymətləndirilməsi və sertifikatların verilməsi üzrə prosedurlar haqqında məlumat verilib. Bu il noyabrın 16-dan həyata keçirilən tvinninq layihəsi Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulan məsuliyyət prosedurlarının həyata keçirilməsində və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirmək məqsədi daşıyır. Qeyd edilən kurslarda Dövlət Dəniz Administrasiyasının əməkdaşları ilə yanaşı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti və bu qurumun təlim mərkəzinin, Azərbaycan Dövlət Dəniz Akademiyasının, SOCAR-ın Tədris, Təlim və Sertifikatlaşdırma İdarəsinin Dənizdə İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzi, "AZPİLOT LLC", "Occupational Training İnstitute" təlim mərkəzlərinin nümayəndələri də iştirak ediblər.






## İstanbulda Asiya və Avropanı dənizin altından birləşdirən Avrasiya Tunelinin açılışı olub

***Dekabrın 20-də İstanbulda Asiya və Avropa qitələrini dənizin altından avtomobil yolu ilə birləşdirən Avrasiya Tunelinin açılışı olub.***

Açılış mərasimində dövlət və hökumət nümayəndələri, eləcə də xarici ölkələri təmsil edən çox sayda rəsmi təmsilçi, Türkiyə ictimaiyyətinin görkəmli şəxsləri iştirak edib.

Mərasimdə Azərbaycanı nəqliyyat naziri Ziya Məmmədov təmsil edib.

Rəsmi açılışda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Kahraman, Baş nazir Binəli Yıldırımın çıxışları dinlənilib.

Çıxışlarda Avrasiya tunelinin əhəmiyyəti, Türkiyədə perspektivdə olan digər layihələr, o cümlədən gündəlikdə olan siyasi məsələlərdən danışılıb.

Məlumat verilib ki, İstanbulun nəqliyyat problemini köklü həll edəcək tunelin istifadəyə verilməsi ilə iki qitə arasındakı məsafəni avtomobil ilə 15 dəqiqəyə qət etmək mümkün olacaq. Dənizin 106 metr dərinliyində tikilən Avrasiya Tuneli ikimərtəbəli yol ilə avtomobillərin hərəkəti üçün nəzərdə tutulub. Layihənin ümumi uzunluğu 14,6 kilometrdir. 5,4 kilometrlik hissəsi isə dənizin altına xüsusi texnologiya ilə inşa edilən ikimərtəbəli tuneldən ibarətdir.

***Sabir Şahtaxtı***




# ANLAŞMA MEMORANDUMU İMZALANIB

***Bakı Limanı və Ələtdə yaradılan Azad Ticarət Zonasının (ƏATZ) potensial imkanlarının öyrənilməsi və özəl sektor iştirakçılarının ATZ-yə cəlb olunması imkanlarının araşdırılması məqsədilə Anlaşma Memorandumu imzalanıb.***

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən bildirilib.

Dekabrın 8-də "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı) ilə İslam İnkişaf Bankı Qrupuna daxil olan Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (Korporasiya) arasında Anlaşma Memorandumu imzalanıb.

Müqaviləni Bakı Limanının baş direktoru Taleh Ziyadov və Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının baş icraçı direktoru Xalid Məhəmməd əl Əbudi imzalayıblar.

"Bakı Limanı və onun ətrafında qurulmaqda olan ATZ Avrasiyada regional mərkəzini yaratmaq istəyən qlobal özəl şirkətlər üçün bir logistik mərkəz kimi fəaliyyət göstərəcək. Əlverişli biznes mühiti və Azərbaycanın Rusiya, İran, Türkiyə və Mərkəzi Asiya kimi zəngin ölkələrlə yaxınlığı potensial xarici investorlar üçün Bakı Limanını ideal seçimə çevirir", - deyə Bakı Limanının baş direktoru Taleh Ziyadov bildirib.

"Bakı Limanı ilə əməkdaşlıq zamanı biz potensial investorları cəlb etmək üçün qarşılıqlı səylərimizi daha da gücləndirərək və eyni zamanda Bakı Limanı və yaradılacaq Azad Ticarət Zonasına korporasiyaya üzv ölkələrdən olan qlobal özəl sektor iştirakçılarının cəlb olunmasına çalışacağıq", - deyə korporasiyanın icraçı direktoru Xalid Məhəmməd əl Əbudi vurğulayıb.

## Logistik mərkəzin yaradılması yüklərin Azərbaycana daha tez daşınmasına səbəb olacaq



***Qarsda logistik mərkəzin yaradılması yüklərin Azərbaycana daha tez daşınmasına səbəb olacaq.***

"yenisafak.com" saytı xəbər verir ki, Türkiyəni yerləşdiyi coğrafi ərazidə böyük logistika mərkəzinə çevirmək, 31 trilyon dollarlıq ticarət yükünü daşımaq, həmçinin Bakı-Tbilisi-Qars layihəsi başa çatdıqdan sonra ilkin olaraq 6,5 milyon ton, daha sonra isə 35 milyon ton yükün daşınması qabiliyyətinə malik olmaq məqsədilə Qarsda logistik mərkəzi inşa ediləcək.

350 min kvadratmetr sahəsi olan logistik mərkəzi 412 min ton yük qəbul edə biləcək. 500 nəfərin çalışacağı mərkəzin dəyəri 100 milyon türk lirəsidir. Azərbaycanla Türkiyəni birləşdirəcək Qars logistik mərkəzinin inşasının texniki əsaslandırılması tamamlanmaq üzrədir.

Həmçinin məlumatda qeyd edilib ki, Qarsdan əlavə Türkiyənin Ərzurum, İğdır, Ərdahan kimi şəhərləri də bu daşımalara cəlb olunacaq. Bunun nəticəsində yüklərin Azərbaycana tez daşınmasına, xarici ölkələrin bu marşrut vasitəsilə daşımalara maraq göstərməsinə nail olunacaq. Bakı-Tbilisi-Qars layihəsi yekunlaşdıqdan sonra Çinlə Avropa arasında olan yükdaşımaların müddəti 15 günə qədər qısaldılacaq.

TANAP

# TANAP-A ÜMUMİLİKDƏ 4 MİLYARD DOLLARADƏK KREDİTİN AYRILMASI GÖZLƏNİLİR

***Beynəlxalq maliyyə qurumlarının Azərbaycan təbii qazının Türkiyəyə və bu ölkədən də Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsinə ümumilikdə 4 milyard dolları dək kredit ayırması gözlənilir. Dünya Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankından layihəyə ayrılan 1,4 milyard dollarlıq kreditlə yanaşı, Çoxtərəfli İnvestisiya Təminatı Agentliyi, Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankından da maliyyə vəsaiti cəlb olunacaq.***

Dekabrın 20-də Dünya Bankının Direktorlar Şurası TANAP layihəsinə 800 milyon ABŞ dolları kredit ayrılması ilə əlaqədar qərar qəbul edib. Belə ki, Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı vasitəsilə cəlb olunacaq kreditin 400 milyon dolları Azərbaycanın zəmanəti ilə "Cənub Qaz Dəhlizi" QSC-yə, qalan hissəsi isə Türkiyənin zəmanəti ilə "Botaş" şirkətinə veriləcək. "Cənub Qaz Dəhlizi" QSC-yə ayrılan kredit 5 ili güzəştli olmaqla 30 il müddətinə, "Botaş"a cəlb olunan kredit isə 5 ili güzəştli olmaqla 24 illiyə verilib.

Dünya Bankının Avropa və Mərkəzi Asiya ölkələri üzrə vitse-prezidenti Siril Muller deyib: "TANAP layihəsinə maliyyə dəstəyi göstərməkdən məmnunuq. Layihə rəqabətə şərait yaratmaqla yanaşı, Azərbaycan və Türkiyə əhalisi üçün yeni iqtisadi imkanlar yaradacaq. Layihə Avropa və Türkiyədə enerji təhlükəsizliyinin təmin edilməsini dəstəkləyəcək".




Dekabrın 21-də Asiya İnfrastruktur İnvestisiya Bankının Direktorlar Şurası da TANAP layihəsinə 600 milyon ABŞ dolları kredit ayrılması ilə bağlı qərar qəbul edib. Kredit Azərbaycan hökumətinin zəmanəti ilə "Cənub Qaz Dəhlizi" QSC-yə verilib.

AİİB-in vitse-prezidenti və baş investisiya direktoru DJ Pandian deyib ki, Asiya ilə Avropa arasında enerji infrastrukturunun yenilənməsinə xidmət edən TANAP layihəsi Azərbaycan iqtisadiyyatını gücləndirməklə yanaşı, Avropanın, o cümlədən Türkiyənin enerji təhlükəsizliyini təmin edəcək.

"Bu enerji infrastrukturu layihəsinə investisiya Azərbaycanın yeni bazarlara inteqrasiyasına və Türkiyənin enerji təhlükəsizliyinin yaxşılaşdırılması üçün mühüm əhəmiyyətə malikdir. TANAP, həmçinin Avropa üçün də faydalı olacaq. Bu kəmərin tikintisi Azərbaycan və Türkiyədə çoxsaylı məşğulluq imkanları yaradacaq", – deyə bankın məlumatında bildirilir.

TANAP-ın baş direktoru Saltuk Düzyol isə 11,7 milyard dollar ilkin dəyəri olan TANAP layihəsinin tələb olunan kapital xərclərinin hazırda 8,5 milyard dollara düşdüyünü deyib. Layihə üzrə işlərin 55 faizi görülüb. TANAP-ın inşası çərçivəsində qurudakı 4 lot üzrə indiyədək 1570 kilometr uzunluğunda xəndək qazılıb və 1200 kilometr boruların qaynağı tamamlanıb. Türkiyənin təbii qazı qəbul edəcək Əskişəhərdə 56 düymlük borulardan istifadə olunur. Boru kəmərinin Əşkişəhərdən Yunanıstan sərhədinə qədər olan hissəsi 48 düymlük borulardan inşa ediləcək. TANAP-ın 19 kilometrlik Çanaqqala boğazı hissəsi 36 düymlük iki paralel boru kəmərindən ibarət olacaq. Boru kəmərinin tikintisi işləri çərçivəsində sahələrdə təxminən 10 min işçi çalışır.

Türkiyəyə nəql ediləcək ümumilikdə 6 milyard kubmetrlik qazın 2018-ci il iyunun sonunda ilkin mərhələdə 2 milyard kubmetri qəbul olunacaq. Həmin həcm sonrakı il 4 milyard kubmetrə, daha sonrakı il isə 6 milyard kubmetrə çatacaq. 11,7 milyard dollar ilkin dəyəri olan TANAP layihəsinin tələb olunan kapital xərcləri hazırda 8,5 milyard dollara düşüb.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan bir layihədir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1810 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Bu il Azərbaycanın "Cənub Qaz Dəhlizi" layihəsinə 2 milyard 809 milyon dollar vəsait ayıracağı planlaşdırılır və bu həcmin 55,7 faizi, yaxud da 1,566 milyard dolları TANAP-a sərf ediləcək. Layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı planlaşdırılır.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1334 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 450 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 19 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC-58 faiz, "Botaş"-30 faiz və BP şirkəti-12 faiz.

## Bakı Limanının tikintisi üzrə işlərin 60-65 faizi tamamlanıb



***Bakı Limanının tikintisi qrafikə uyğun davam etdirilir. Birinci mərhələdə nəzərdə tutulmuş bütün işlər gələn ilin sonunadək tamamlanacaq. Limanın tikintisi üzrə işlərin 60-65 faizi tamamlanıb, 40 faizi isə gələn il başa çatacaq.***

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov deyib.

"Ötən il qlobal maliyyə böhranı səbəbindən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı üzrə aşırımın həcmində azalma müşahidə olunub. Bu il liman üzərindən aşırılan yüklərin həcminin 4 milyon tonu keçəcəyi gözlənilir. Gələcəkdə bu artım dinamikası müşahidə olunacaq", - deyə T.Ziyadov əlavə edib.

# "TÜRK AXINI"NIN 900 KİLOMETRLİK DƏNİZ HİSSƏSİNİ İSVEÇRƏNİN "ALLSEAS" ŞİRKƏTİ İNŞA EDƏCƏK

***Rusiyanın enerji nəhəngi "Gazprom" şirkəti ilə İsveçrənin "Allseas" şirkəti arasında Rusiyadan təbii qazın Türkiyəyə nəqlini nəzərdə tutan "Türk axını" qaz boru kəməri (Turkish Stream) layihəsi çərçivəsində ilk boru kəmərinin inşa edilməsi üzrə müqavilə imzalanıb.***




"Gazprom" xəbər verir ki, "Türk axını"nın dəniz hissəsində inşa ediləcək ilk boru kəməri üçün "Allseas" şirkəti ilə müqavilə imzalanıb. "Allseas" şirkəti müqavilə üzrə Qara dənizdə 900 kilometr uzunluğunda boru kəməri inşa edəcək və tikinti işlərinə 2017-ci ilin ikinci yarısında başlayacaq.

"Türk axını" çərçivəsində inşa edilməsi planlaşdırılan ikinci boru kəmər üçün də "Allseas" şirkəti seçim hüququna malik olacaq.

Qeyd edək ki, oktyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putinin görüşündə "Türk axını" qaz boru kəməri layihəsi üzrə hökumətlərarası saziş imzalanıb. Sazişi Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak və Rusiyanın energetika naziri Aleksandr Novak imzalayıb. Dekabrın 6-da isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türk axını" qaz boru kəməri layihəsi üzrə Rusiya ilə imzalanan hökumətlərarası sazişin ratifikasiyası haqqında qanunu imzalayıb.

"Türk axını" ilə Rusiya təbii qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulur. Kəmərlə ümumilikdə 31,5 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılır. Layihə üzrə hər biri 15,75 milyard kubmetr tutuma malik iki boru kəmərinin inşa edilməsi nəzərdə tutulur. İlk boru kəmərinin Türkiyəyə, ikinci kəmərin isə zəruri zəmanət təmin olunacağı təqdirdə Avropaya çatdırılması planlaşdırılır.

## Transxəzər marşrutu ilə yola salınan konteyner qatarlarının sayı 1000 vahidə çatacaq

***2020-ci ilədək Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) ilə yola salınan konteyner qatarlarının sayı 1000 vahidə çatacaq.***




Qazaxıstan dəmir yolları administrasiyasının saytı xəbər verir ki, bu barədə razılaşma Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yol administrasiyaları rəhbərlərinin Bakıda keçirilmiş işgüzar görüşündə əldə edilib. Görüşdə TBNM üzrə yük axınlarının artırılması üçün çevik tarif siyasəti yürüdülməsi, Qazaxıstan, Azərbaycan və Gürcüstan arasında yükdaşımaların həcminin artırılması məsələləri müzakirə edilib. TBNM üzrə tranzitin artırılmasını təmin etmək üçün 2017-ci ildə tətbiq olunacaq kompleks tarif dərəcələri razılaşdırılıb.

"Azərbaycan dəmir yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Қазақстан темір жолы" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında dəmir yol maşınqayırma sahəsində müştərək layihələrin həyata keçirilməsi üzrə Əməkdaşlıq haqqında Memorandum imzalanıb. Cari ildə Azərbaycan "Локомотив құрастыру зауыты" Səhmdar Cəmiyyətində istehsal edilmiş "Evolution seriyalı 10 ədəd yük teplovozu alıb. Gələn ildən etibarən Azərbaycan dəmir yoluna "Электровоз құрастыру зауыты" Məhdud Məsuliyyətli Ortaqlığında (MMO) istehsal edilmiş elektrovozlar daxil olacaq. 2019-cu ilə qədər 40 bu cür elektrovoz alınması planlaşdırılır.

## "Azərbaycan və Böyük İpək Yolu: Odlar yurdunun İpək Yolunun inkişafındakı rolu"

***Özbəkistanın 1news.uz portalında rus dilində "Azərbaycan və Böyük İpək Yolu: Odlar yurdunun İpək Yolunun inkişafındakı rolu" sərlövhəli məqalə yerləşdirilib.***



1news.uz/ru/kultura/azerbaydzhan-i-velikiy-shelkovyiy-put-rol-stranyi-ogney-v-razvitii-shelkovogo-puti/

АЗЕРБАЙДЖАН И ВЕЛИКИЙ ШЕЛКОВЫЙ ПУТЬ: РОЛЬ СТРАНЫ ОГНЕЙ В РАЗВИТИИ ШЕЛКОВОГО ПУТИ

06.12.2016 ПОДЕЛИТЬСЯ:

1news.uz — Издавна торговые маршруты Великого Шелкового пути неизменно проходили через Азербайджан. Он был «воротами» между загадочным далеким Китаем и богатой Европой.

Məqalədə qədim dövrlərdən Böyük İpək Yolunun Azərbaycandan keçdiyi bildirilir. Bu dəhlizin sirli Çinlə zəngin Avropa arasında bir qapı olduğu vurğulanır.

Yazıda bildirilir ki, bizim eradan əvvəl I-II əsrlərdə ən işlək yol Odlar Yurdundan keçirdi və bu yolu adətən Strabon yolu adlandırırdılar.

Bu yol Çin, Hindistan, Mərkəzi Asiya ərazisindən Uzbay çayı vasitəsi ilə Xəzər dənizi, sonra isə Azərbaycan ərazisindən keçib.

Materialda Azərbaycanın Böyük İpək Yolunda fəal iştirakı haqda geniş məlumat verən portal yazır ki, o zaman Azərbaycanın paytaxtı olan Bərdə dünyada böyük ticarət şəhərinə çevrilmişdi.

Yazıda qeyd edilir ki, o dövrdə Şamaxı, Dərbənd, Bakı, Ərdəbil, Təbriz, Gəncə, Marağa da inkişaf edən şəhərlər sırasında idi. Tacirlər Azərbaycandan Avropaya neft, ipək, qiymətli daşlar, duz, yun, mis məmulatları və digər məhsullar aparırdılar.

Materialda Böyük İpək Yolunun inkişafında Orta Asiyanın rolu haqqında da ətraflı məlumat verilir.

***Qulu Kəngərli***



# 2017-Cİ İLİN İŞ VAXTI NORMASI VƏ İSTEHSALAT TƏQVİMİ TƏSDİQ EDİLİB

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 15 dekabr 2016-cı il tarixli 10 nömrəli qərarı ilə 2017-ci ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.***

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, növbəti ildə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda Əmək Məcəlləsinin tələblərinə uyğun şəkildə işçilərin iş vaxtı normasının düzgün hesablanması və tətbiq edilməsi işləri həmin iş vaxtı norması və istehsalat təqviminə əsasən yerinə yetirilməlidir.

2017-ci ilin İş vaxtı normasında bildirilir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "2017-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2016-cı il 25 noyabr tarixli 483 nömrəli qərarına əsasən 2017-ci ildə 1, 2 yanvar - Yeni il bayramı, 20 Yanvar - Ümumxalq hüzn günü, 8 Mart - Qadınlar günü, 20, 21, 22, 23, 24 mart - Novruz bayramı, 9 May Faşizm üzərində Qələbə günü, 28 May - Respublika günü, 15 İyun - Azərbaycan xalqının Milli Qurtuluş günü, 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü, 26, 27 iyun - Ramazan bayramı, 1, 2 sentyabr - Qurban bayramı, 9 Noyabr -Azərbaycan Respublikasının Dövlət Bayrağı günü və 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü iş günü hesab edilmir.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci və 6-cı hissələrinə və Nazirlər Kabinetinin "2017-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2016-cı il 25 noyabr tarixli 483 nömrəli qərarına əsasən, 2017-ci ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri və Ramazan bayramının bir gününün Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq beşgünlük iş həftəsində 3, 4 yanvar, 29 may, 28 iyun və 4 sentyabr tarixləri, altıgünlük iş həftəsində isə 3 yanvar və 29 may tarixləri istirahət günləridir.

2017-ci ilin fevral ayı 28 təqvim günündən, il isə 365 təqvim günündən ibarətdir.

Sənəddə qeyd olunur ki, 2017-ci ildə beşgünlük iş həftəsində 241 iş günü (onlardan 5-i bayramqabağı, 1-i Ümumxalq hüzn günü qabağı iş günləridir), iş günü hesab edilməyən 110 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşən, 1-i isə Ramazan bayramının bir gününün iş günü hesab olunmayan başqa bayram günü ilə üst-üstə düşən), iş günü hesab edilməyən 17 bayram (4-ü istirahət günləri ilə üst-üstə düşən) və 1 Ümumxalq hüzn günü vardır. Əmək Məcəlləsinin 89-cu və 90-cı maddələrinə əsasən Azərbaycan Respublikasında gündəlik normal iş vaxtının müddəti 8 saatdan artıq ola bilməz və bir qayda olaraq, iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir. Gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq ola bilməz.

2017-ci ilin iş vaxtı norması 40 saatlıq beşgünlük iş həftəsi üzrə 8 saatlıq iş günü hesabından müəyyən edilir və bu zaman Əmək Məcəlləsinin 108-ci maddəsinin 1-ci hissəsinə müvafiq olaraq iş günü hesab edilməyən bayramqabağı, səsvermə, habelə Ümumxalq hüzn günü qabağı iş günlərində həftəlik iş günlərinin müddəti bir saat qısaldılır. Qanunvericiliyə uyğun olaraq 2017-ci il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1922 saat təşkil edəcək.

2017-ci ilin iş vaxtı normasına əsasən, istehsalın, işin, xidmətin və əmək şəraitinin xarakterindən asılı olaraq tətbiq edilən bir istirahət günü olan altıgünlük iş həftəsi və müəyyən qeydiyyat (uçot) dövrü üçün növbə cədvəlləri beşgünlük iş həftəsinin həmin dövr üzrə iş vaxtı normasına riayət edilməklə tərtib olunur. Əmək Məcəlləsinin 90-cı və 108-ci maddələrinə əsasən altıgünlük iş həftəsi tətbiq edilərkən həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan və bilavasitə səhərisi gün istirahət günü olan iş gününün müddəti isə 6 saatdan çox ola bilməz. Məcəllənin 91-ci, 92-ci və 93-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, qalan iş yerlərində səsvermə, bu Məcəllənin 105-ci maddəsində göstərilən iş günü hesab edilməyən bayram günləri və Ümumxalq hüzn günü qabağı iş gününün müddəti həftəlik iş günlərinin sayından asılı olmayaraq bir saat qısaldılır. Altıgünlük iş həftəsi olan iş yerlərində 40 saatlıq iş həftəsində çalışan işçilər üçün 2017-ci ildə beşgünlük iş həftəsi üzrə hesablanmış 1922 saatlıq illik iş vaxtı norması tətbiq edilməlidir.

Sənəddə həmçinin bildirilir ki, iş vaxtının qeydiyyatı (uçotu) dövründə və ya təqvim ili ərzində iş vaxtı saatları iş vaxtı normasına uyğun gəlirsə, ayrı-ayrı aylarda iş vaxtının normal iş vaxtından az və ya çox işlənilməsi halları altıgünlük iş həftəsi cədvəlinə yenidən baxılması üçün əsas ola bilməz. İş vaxtının illik normasına görə altıgünlük iş həftəsi cədvəlinə il ərzində düzəliş edilməsi ilə bağlı konkret məsələlər istehsalat və digər yerli şərait nəzərə alınmaqla bilavasitə kollektiv müqavilədə nəzərdə tutulmaqla həll olunur. Qeydiyyat (uçot) dövründə iş vaxtının müddəti qanunvericiliklə müəyyən olunmuş iş saatlarının sayından çox olmamaq şərti ilə iş vaxtının cəmlənmiş uçotu tətbiq edilə bilər. Bu halda qeydiyyat (uçot) dövrü bir ildən artıq, gündəlik işin (növbənin) müddəti isə 12 saatdan çox ola bilməz.

2017-ci ilin İş vaxtı norması və İstehsalat təqvimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytının (www.mlspp.gov.az) ön səhifəsindəki "2017-ci ilin İstehsalat təqvimi" bölməsində təqdim edilir.

## Yeni metro stansiyasının tikintisinə start veriləcək

***Yanvarda yeni metro stansiyasının tikintisinə start veriləcək. Şərti adı "Y-15" stansiyasından - neft emalı zavodunun qarşısından "Xətai" metro stansiyası istiqamətinə doğru tunelin qazıntısına başlanılacaq.***

Bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Bakının Nobel prospekti boyunca şərti adlar altında 3 yeni metro stansiyasının tikintisi nəzərdə tutulur. Bunlardan biri "Ağ şəhər" ərazisində, digərləri isə neft emalı zavodunun qarşısında olacaq.

N.Paşayev qeyd edib ki, şərti adı "Y-15" olan stansiyada hazırlıq işləri görülür. Tunel-qazıntı işlərinin aparılması üçün start kameranın tikintisi tam başa çatıb. Tunelqazma maşınının quraşdırılması ilə bağlı işlər tam bitmək üzrədir. İşlər qaydasında gedərsə, yanvar ayından "Y-15", yəni neft emalı zavodunun qarşısından "Xətai" metro stansiyası istiqamətinə tunelin qazıntısına başlanılacaq. Növbəti mərhələdə isə "Y-15" stansiyasından tikilməkdə olan "Həzi Aslanov-2" stansiyasına doğru tunellərin qazıntısına başlanılacaq. Gələcəkdə "Xətai" stansiyasından "Həzi Aslanov-2" stansiyasına doğru 3 stansiya fəaliyyət göstərəcək.

## Fövqəladə Hallar Nazirliyi Yeni il bayramı ilə əlaqədar əhaliyə müraciət edib



***Fövqəladə Hallar Nazirliyi (FHN) Yeni il bayramında yanğın təhlükəsizliyi qaydaları ilə əlaqədar əhaliyə müraciət edib.***

Müraciətdə Yeni il bayramı ilə əlaqədar yanğın təhlükəsinin xeyli artdığı qeyd olunub. Buna görə də təhlükəsizlik qaydalarına dəqiq əməl olunmasının vacibliyi diqqətə çatdırılıb.

Bildirilib ki, evlərdə və şənliklərin keçirildiyi məkanlarda bəzədilən küknar ağacı yerə möhkəm bərkidilməli, ağacın budaqları tavana və divarlara toxunmamalıdır. İşıqlandırmada saz və standartlara uyğun elektrik qurğu və cihazlarından istifadə edilməli, ağac tezalışan oyuncaqlarla bəzədilməməli, qapalı məkanda atəşfəşanlıq edilməməlidir. Bayram şənliyi ikinci mərtəbədən yuxarıda keçirilməməlidir. Həmçinin şənlik keçirilən otağın divar, tavan və döşəməsi odadavamlı olmalı, pəncərədə dəmir barmaqlıq olmamalı, məkanın iki çıxışı olmalı, ehtiyat qapı üzərində "Çıxış" sözü yazılmış yaşıl işıqlı elektrik lövhə vurulmalıdır. Bununla yanaşı, otağın qapıları mütləq bayıra açılmalı, məkanda nəzərdə tutulan saydan artıq insan olmamalı, şənlikdə işıq tam söndürülməməli, tezalışan materialdan paltar geyinilməməlidir. Məkan ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

"Unutmayın ki, qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin", - deyə müraciətdə qeyd olunub.

# DÜNYA YENİ İLİ NECƏ QARŞILAYIR

***Yeni il dünya xalqlarının ən səbirsizliklə gözlədikləri və böyük ümidlər bəslədikləri bayramdır. Ona görə, hər bir ölkə bu bayrama böyük həvəslə hazırlaşır. Tarixən belə olub və ötüb keçən əsrlər ərzində hər xalqın özünün Yeni il ənənələri formalaşıb.***



### ALMANİYA

Almanlar Yeni il bayramında o qədər şən, mehriban olurlar ki, onların sakit və çox təmkinli olmaları barədə fikirlərə inanmaq olmur. Bayram gecələrində xəyalpərəst alman gəncləri ürəklərində niyyət tuturlar. Hətta bu məqsədlə Nurnberq şəhərinə gedənlər də tapılır. Belə ki, bu şəhərin mərkəzində çox yaraşıqlı bir fəvvarə var. Deyilənə görə, bu fəvvarəni Almaniyada məşhur bir ailənin yeganə qızına bir könüldən min könülə vurulmuş çox istedadlı memar inşa etdirib. Fəvvarə ornamentlərlə bəzədilmiş çuqun barmaqcıqlarla dövrələnib. Rəvayətə görə, bu barmaqların birində iki qızıl üzük gizlədilib.

Yeni il axşamı ziyarətə gələn alman qızları niyyət tutub, fəvvarənin başına saat əqrəbi istiqamətində fırlanırlar. Gənc oğlanlar isə bu gözəl qızları oğrun-oğrun süzür, gözləri tutan gözələ necə yaxınlaşmaq barədə düşünürlər.

Almanların Yeni il bayramında süfrələrini adətən rəngbərəng almalar və fındıq bəzəyir. Bu xalqın inancına görə, alma xeyirin rəmzidir, fındığı isə sındırıb "həzm-rabedən" keçirməklə növbəti ildəki çətinliklərdən qurtulmaq olar.

### İSPANİYA

İspaniyada bayram günü hamı şəhərin mərkəzi meydanlarına axışır, burada kütləvi şəkildə üzüm yeməyə başlayırlar. Hər kəs müəyyən vaxt ərzində ilin 12 ayını simvolizə edən 12 salxım üzüm yeməlidir. İspanların qədim ənənələrindən biri də ondan ibarətdir ki, bayram axşamı küçələrdə müxtəlif tələlər qurulur. Bu, onun üçündür ki, pis qüvvələr köhnə ildə ilişib qalsın, yeni ilə keçə bilməsinlər.

### AVSTRİYA

Avropa ölkələrindən olan Avstriyada maraqlı ənənələr formalaşıb. Bu ölkədə hələ qədimlərdən Yeni il bayramının xeyirxah obrazları bacatəmizləyən və donuzdur. Baxmayaraq ki, donuzun əti bayram süfrələrində iştahla həzm-rabedən keçirilir. Qədim zamanlarda bacatəmizləyən küçədə görünən kimi, insanlar onun arxasınca qaçıb hisə bulaşmağa çalışırlarmış. Bu, guya, Yeni ilin xoşbəxtlik gətirəcəyinə işarə imiş.

### BRAZİLİYA

Yeni illə bağlı qədim ənənələrə malik ölkələrdən biri də Braziliyadır. Bu ölkədə Yeni il toplardan açılan atəşlərlə qarşılanır. Atəş səsi eşidilən kimi, hamı bir-birini qucaqlayıb öpməyə başlayır. İnsanlar inanırlar ki, atəş anında özlərinə əziz hesab etdikləri bir adamı qucaqlayıb öpməyə macal tapanlar, Yeni ildə xoşbəxt olacaqlar.

### ÇİN

Çində də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri özlərindən uzaqlaşdırdıqlarını düşünürlər.

### FİNLANDİYA

Finlər Yeni ili deyib-gülməklə, yeyib-içməklə qarşılamağı çox sevirlər. Hətta Şaxta babanın onların həmvətənləri olduğunu iddia edirlər. Axı, Avropada geniş yayılmış inanclara görə, Şaxta baba qütb dairəsində, "Laplandiya" adlanan möcüzəli bir yerdə yaşayır. Finlandiya sakinləri Laplandiyanın məhz öz ölkələrinin ərazisində yerləşdiyini güman edirlər.

Finlandiyada Yeni ili əslində dekabrın 25-dən, yəni Milad bayramı günündən qarşılamağa başlayırlar. Dekabrın 31-dən isə paytaxt Helsinkidə nağıl və əsatir qəhrəmanlarının libaslarını geymiş aktyorlar teatr mərkəzləri təşkil edirlər. Həmin gecə ağ, uzun saqqallı, qırmızı papaqlı, əlində xurcun tutan Şaxta baba şimal maralları qoşulmuş xizəkdə Helsinkinin mərkəzi meydançasına daxil olur. Ətrafda alqış sədaları qopur. Şən mahnılar, gülüş səsləri hər yeri bürüyür. Bayram gününü Helsinkidə keçirən əcnəbi qonaqlar etiraf edirlər ki, Finlandiya paytaxtında Yeni ili həqiqətən yaddaqalan tərzdə keçirməyi bacarırlar.

### HOLLANDİYA

Hollandların ulu babalarının dünyanın məşhur səyyahları olmaları hər kəsə məlumdur. Dəniz səyahətləri ilə bağlı rəvayətlər hollandların adət və ənənələrinə də hopubdur. Burada uşaqları inandıra biliblər ki, Yeni ildə Şaxta baba soyuq dənizlərdən üzüb gələn gəmidə təşrif buyurur. Buna görə, Hollandiyanın sahil şəhərlərində Yeni il axşamı adam əlindən tərpənmək olmur. Uşaqlar Şaxta babanı valideynləri ilə bərabər, limanlarda qarşılayırlar. Gəmi sahilə yan alır. Şaxta baba onu burada səbirsizliklə gözləyən uşaqlara çoxlu sovqat paylayır. Uşaqlar da Şaxta babanın qarşısında şeirlər söyləyir, mahnılar oxuyur, rəqs edirlər.

Yeni il bayramı günlərində paytaxt Amsterdam çox qonaq-qaralı olur. Hollandlar bayramda süfrələrini ləziz şirniyyatlarla, bahalı şərablarla bəzəməyi sevirlər.

### POLŞA

Yeni il polyakların da sevimli bayramıdır. Polyaklar Şaxta babanı Silvester Klaus adlandırırlar. Bu həmin Silvester adlı məşhur nağıl qəhrəmanıdır ki, o, Levifian adlı vəhşiyə qələbə çalaraq, insanları dəhşətli bəladan xilas edib.

Yeni il axşamı Polşa paytaxtında məşhur Seçenka heykəlini ziyarət etməyi xoşlayırlar. Seçenka balıq quyruqlu qadın heykəlidir. Rəvayət edirlər ki, Seçenka adlı bir gözəl gənc qadın yerli balıqçıları qəsbkarların qəfil hücumlarından öz həyatını təhlükə qarşısında qoyaraq xilas edib. Polyaklar bu xanımın cəsarətini minnətdarlıq hissi ilə xatırlamağı özlərinə borc bilirlər.

Milad bayramı başlayandan Yeni ilin ilk gününə qədər gənc polyaklar Seçenkanın "quyruğuna" əl sürtməyə çalışırlar ki, təzə ildə arzularına çatsınlar. Ancaq "quyruqlu gözələ" toxunmaq o qədər də asan deyil. Məsələ burasındadır ki, Seçenkanın heykəli hər tərəfdən çoxsaylı fəvvarələrin əhatəsindədir. Ən soyuq qış günlərində də bu fəvvarələrdən su fışqırır. Ancaq məhəbbət dəryasında üzən gənclər fəvvarələrin soyuq sularının fərqinə varmırlar. Aşiqlərin isə dünyanın hər yerində bircə arzusu var ki, o da vüsala tez yetişməkdir.

### İTALİYA

İtalyanlar bayramı qırmızı paltarda qarşılamağı sevirlər. Təzə ilin möcüzələrlə dolu olacağına ürəkdən inanırlar. İtaliyada ta qədimdən belə bir əfsanə yaşayır ki, Yeni il gecəsi bu ölkədə dağ çaylarının biri dayanıb qızıla dönür. Buna görə, italyanlar təzə ilin ilk günlərindən al paltarlar geyinirlər ki, evlərindəki ruzu-bərəkət artsın.

İtalyanların Yeni il süfrəsində çoxlu qurudulmuş üzüm olur. Qədim Romada deyirdilər ki, üzüm şirəsində həyat eşqi var. Bir az çılğın, bir az da səs-küylü həyat tərzinə vərdiş etmiş italyanlar bayramı doğmalarının əhatəsində qeyd etməyə çalışırlar.

### FRANSA

Avropa ölkəsi olan Fransada Şaxta baba Per Noel, yəni Noel ata adlanır. O, Yeni il gecəsi hamı yatdıqdan sonra gizlincə gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə bayram günü daha çox yeyib-içməyi sevirlər.

Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək çətin deyil. Böyüklər də bu bayramda hədiyyəsiz keçinmirlər. Ümumiyyətlə, bu ölkədə Yeni ilin ən maraqlı tərəfi hədiyyələrdir. Amma burada bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə ətir qəbul etməsi yaxşı qarşılanmır.

### QRENLANDİYA

Ən maraqlı bayram hədiyyələrini isə Qrenlandiya eskimosları bir-birinə bağışlayırlar. Bu, morjların və ağ ayıların buzdan yonulmuş fiqurlarıdır. Qrenlandiyadakı hava şəraiti bu hədiyyələri uzun müddət saxlamağa imkan verir.

### İSVEÇRƏ

İsveçrədə insanlar bir-birinə şam hədiyyə edirlər ki, bu da dostluğun və sevincin rəmzidir. Bayram axşamı isə ailə başçısı-ata zibil atmaq bəhanəsiylə evdən çıxır və Yul Tomten (Şaxta baba) obrazında qayıdır, uşaqlara hədiyyələr paylayır.

### BÖYÜK BRİTANİYA

Bayram günü evdə ideal təmizlik və qayda-qanun hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerinin dəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapılar bağlanır və həyəcan və səbirsizliklə evə ilk girəcək qonağı gözləyirlər. İnanca görə, ilin necə keçəcəyi içəri ilk girən adamın kimliyindən asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən ayağı sayalı qonaq kürən kişi hesab olunur. Çatmaqaş adamın gəlişinə qarşı isə o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Sonuncunu ocağa atırlar ki, ailənin ocağı daim gur yansın.

### YAPONİYA

Yaponiyada bayram günü Budda məbədlərindəki bütün zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər zəng insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Beləcə, gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

### GÖZƏL YOLKA, ŞƏN YOLKA

Yeni il bayramını yaşıl donlu, bər-bəzəkli yolkasız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu yolkanın yarpaqları xoş ətir saçan təbii küknar ağacından olması daha arzuolunandır. Amma təbiəti qorumaq xətrinə süni yolkalarla da keçinmək olar. Bəs, Yeni il bayramında yolka bəzəməyin mənası nədir? Bir çoxları yolka bəzəmək ənənəsini xristian diniylə bağlayır. Əslində isə həyat rəmzi olan yolkanın bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hər hansı dinlə bağlı deyil. Hələ Miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirərmişlər. Bu həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə əkin allahının şərəfinə evlərini yaşıl yarpaqlarla bəzəyirlərmiş. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edərlərmiş. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 24-də qeyd edilən Adəm və Həvva bayramını simvolizə edərmiş.

Yeni il yolkası haqda ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində şam ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Zamanla bu adət bütün Avropaya yayılır. Yeni dünya- Amerikaya yolkanı almanlar gətiriblər. 1851-ci ildə bu ölkədə ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir. Yolka beləcə bütün dünyada məşhurlaşıb.



## Okeanda "ölü zona" aşkarlanıb

***Beynəlxalq alimlər qrupu Hind okeanında "ölü zona" aşkar edib.***

ecoportal.su saytı xəbər verir ki, Benqal körfəzində aşkarlanan "ölü zona"nın sahəsi təqribən 60 min kvadratkilometrdir. Dərinliyi isə 100 metrdən 400 metrədək dəyişir. Orada suyun tərkibində çox az miqdarda oksigen var.

"Benqal körfəzində digər "ölü zonalar"da baş verən azot itkisi əlamətləri qeydə alınmayıb. Güman edirik ki, "ölü zona"nın yaranmasına Benqal körfəzinin sahilində yaşayan əhalinin yüksək sıxlığı kömək edir", - deyə tədqiqatın aparıcı müəllifi Lora Bristou bildirib.

Ümumilikdə "ölü zonalar"ın sahəsi 245 min kvadratkilometrdən çoxdur. Alimlər bunun qlobal istiləşmə üzündən baş verdiyini güman edirlər.



## Ton Balığı Günü

***BMT-nin Baş Assambleyası mayın 2-si tarixini Beynəlxalq Ton Balığı Günü elan edib. Məqsəd bu qiymətli balıq növü haqqında məlumatlılığı artırmaqdır.***

BMT-nin saytı xəbər verir ki, qətnamədə 80-dən çox dövlətin bütün okeanlarda ton balığı ovu ilə məşğul olan minlərlə gəmisinin fəaliyyət göstərdiyi, Hind və Sakit okeanlarında isə onların sayının sürətlə artdığı bildirilir. Ton balığı bir çox ölkələr üçün ərzaq təminatı, iqtisadi inkişaf və əhalinin məşğulluğu baxımından böyük əhəmiyyətə malikdir.

Baş Assambleya bütün üzv dövlətlərə, beynəlxalq və regional təşkilatlara və vətəndaş cəmiyyətinə bu günün lazımi şəkildə qeyd olunmasını təklif edir.



## Britaniya balıqçılıq sənayesinin Avropa İttifaqına ehtiyacı var

***Britaniyanın dövlət rəsmiləri bu ölkənin balıqçılıq sənayesinin inkişafı üçün Avropa İttifaqına (Aİ) ehtiyac olduğunu düşünürlər.***

"Brexit"dən sonra avropalı balıqçılar Britaniya sularında balıq tutmaq üçün qeydiyyatdan keçməli olacaqlar. Bu da balıqçılıq sənayesinə mənfi təsir göstərəcək. Həmçinin Britaniyada balıqçılıqla məşğul olanların sayı azdır və bu sahə ölkə iqtisadiyyatının 1 faizdən də az hissəsini təşkil edir.

Bəzi ekspertlər qeyd edirlər ki, "Brexit"dən sonra Britaniya sularında balıq ovlamaq istəyən xaricilər dövlətə vergi verəcəklər və bu da həmin sahədə gəlirin və ixracın daha da artacağına gətirib çıxaracaq.

Qeyd edək ki, Britaniyada balıqçıların əksəriyyəti referendum zamanı "Brexit"in lehinə səs verib.



## Hind okeanının dərinliklərində yeni canlı növləri kəşf olunub

***"Reports" elmi-tədqiqat jurnalında dərc olunan tədqiqat işində Hind okeanının dərinliklərində isti su mənbələri yaxınlığında 6 yeni canlı növünün kəşf edildiyi bildirilir.***

trt.net xəbər verir ki, ingilis tədqiqatçıları tərəfindən aşkar olunan yeni canlılar arasında açıq qəhvəyi rəngli xərçəng, dəniz iblisi, okean soxulcanı və qum qurdu növləri var.

Okeanın dibindəki isti su mənbələri ilk dəfə 1977-ci ildə aşkarlanıb. O zamandan etibarən 400-dən çox yeni canlı növü kəşf edilib.



## BUZLAQLARIN ƏRİMƏSİ NOYABR AYINDA REKORD SƏVİYYƏYƏ ÇATIB

***Elm adamları Şimal qütbü və Antarktidadakı buzlaqların miqdarının daha əvvəl rast gəlinməmiş bir vəziyyətdə azalmasının rekord səviyyədə olmasını açıqlayıblar.***

Anadolu agentliyi xəbər verir ki, ABŞ-ın Milli Qar və Buz Məlumat Mərkəzinin rəsmi internet saytında yayımlanan hesabatda son 30 ilin göstəricilərinə əsasən, Şimal qütbü və Antarktidadakı buzlaqların əriməsinin noyabr ayında rekord səviyyəyə çatdığı qeyd olunub.

Hesabatda bildirilir ki, Şimal qütbündəki buz kütlələri 1981-2010-cu illərdə orta hesabla 9,08 milyon kvadratkilometr ərazini əhatə edib. Noyabr ayında isə buzlaqların ölçüsünün 1,95 milyon kvadratkilometr olduğu müəyyən edilib. Antarktidada isə noyabr ayında buz kütlələrinin ölçüsü 14,54 milyon kvadratkilometr təşkil edib ki, bu da hesabatda göstərilən dövrlə müqayisədə 1,81 milyon kvadratkilometr daha aşağıdır.

Hesabatda, həmçinin Barents dənizi də daxil olmaqla həmin dövrdə buzlaqların 50 min kvadratkilometr azaldığı bildirilir.

## DÜNYADAKI 1,4 MİLYON GÖLDƏ 180 MİN KUBKİLOMETR SU VAR



***Alimlər ilk dəfə olaraq dünyadakı bütün göllərin sahil xətlərinin uzunluğunu və suyun həcmini hesablayıblar. Məlum olub ki, göllərin suyu yer kürəsinin quru hissəsinin üzərini 1,3 metr hündürlüyündə maye ilə örtməyə kifayət edir.***

"Nature Communications" jurnalının məlumatına görə, bununla bağlı tədqiqat Kanadanın Makgill universitetinin alimi Bernard Lenerin başçılıq etdiyi alimlər qrupu tərəfindən aparılıb.

Böyük və məşhur göllər kifayət qədər tədqiq edilsə də, kiçik göllərin əksəriyyəti demək olar ki, öyrənilməyib. Lener və həmkarları son illər peyk xəritələrindən və zondlardan alınmış məlumatlardan istifadə etməklə bu boşluğu doldurmaq qərarına gəliblər. Beləliklə, alimlər sahəsi minimum 10 hektar olan 1,4 milyona yaxın gölün dəqiq su tutumunu hesablamağa nail olublar. Hesablamalar göstərib ki, bu göllərdə 180 min kubkilometr həcmində su var. Onların sahil xətlərinin uzunluğu 7 milyon kilometrə çatır ki, bu da Günəşin diametrindən beş dəfə çoxdur.

Dünya göllərindəki suyun təxminən 85 faizi onlarla böyük gölün payına düşür. Mövcud stereotiplərin əksinə olaraq, "göllər ölkəsi" Finlandiya yox, ərazisində 900 minə yaxın kiçik və böyük göl olan Kanadadır.



## TURİSTLƏR SON İYİRMİ İLDƏ ƏN AZI YETMİŞ BEŞ DELFİNİN ÖLÜMÜNƏ BAİS OLUBLAR

***İnsanların təbii şəraitdə yaşayan delfinlərlə ünsiyyətdə olması sonunculara böyük təhlükə törədir. Amerikalı alimlər bildirirlər ki, insanlarla ünsiyyətə girən delfinlər daha su nəqliyyatından qorxmadığı üçün tez-tez vintlərin altına düşürlər.***

"planet-today.ru" saytı xəbər verir ki, alimlər Sarasota-Bey (Florida ştatı) laqunu akvatoriyasında 45 il ərzində delfinlər arasında çoxsaylı ölüm hallarını təhlil ediblər.

Delfinlərin əsas problemi onlara yem verən turistlərdir. Yem almağa cəhd edən dəniz məməliləri riskli davranmağa başlayır, qayıqlara və katerlərə yaxınlaşaraq, tez-tez ölümcül zədələr alırlar.

Bundan əlavə, insanlar delfinləri çox zərərli yeməklərə, o cümlədən şokolad və "hot-doq"a qonaq edirlər. Delfinlər bu qidalardan xəstələnir və ölürlər.

Alimlər deyirlər ki, Sarasota-Beyə gələn turistlər son iyirmi ildə ən azı yetmiş beş delfinin ölümünə bais olublar.

## CƏNUBİ ÇİN DƏNİZİNİN MÜBAHİSƏLİ HİSSƏSİNİ "ŞİMAL DƏNİZİ NATUNA" ADLANDIRIR

***İndoneziya hökuməti ölkəsinə məxsus xəritələrdə Natuna adaları ətrafında yerləşən Cənubi Çin dənizinin bir hissəsini "Şimal dənizi Natuna" adlandırmaq qərarına gəlib. Güman edilir ki, bu addım Çinin iddialarının qarşısını almaq məqsədilə atılır.***




Yaponiyanın NHK televiziya kanalının yaydığı məlumata görə, İndoneziyaya məxsus xəritələrdə "Şimal dənizi Natuna" adı gələn ildən tətbiq olunacaq.

Çinin mübahisəli demarkasiya xətti Natuna adaları ətrafında İndoneziyaya məxsus iqtisadi zonanın bir hissəsindən keçir. Cənubi Çin dənizinin böyük bir hissəsini əhatə edən həmin xətt Çinin bu regiona iddialarını bir daha təsdiq edir.

Cari ildə iki ölkə arasında Natuna adaları ilə bağlı ciddi mübahisə yaranıb. Yayılan xəbərlərə görə, həmin sularda qanunsuz ovla məşğul olan Çin balıqçı qayıqlarının sayının çoxalması İndoneziya hökumətini onların saxlanılması istiqamətində ciddi addımlar atmağa məcbur edib.



## ƏN QƏDİM SU MƏNBƏYİ TAPILIB

***Kanadalı alimlər dünyada ən qədim su mənbəyi tapıblar.***

Toronto Universitetinin alimləri Kanadada iki milyard il yaşı olan su mənbəyi aşkarlayıblar. Qədim göl Kanada şaxtalarından birində yer səthindən üç kilometr dərinlikdə tapılıb. Elmi ictimaiyyət bu tapıntını tanıyıb.

Elə həmin şaxtada mütəxəssislər təxminən üç il bundan əvvəl 1,5 milyard il yaşı olan su yataqları kəşf etmişdilər. Onda bu rəqəm alimləri əməlli-başlı təəccübləndirmişdi. Lakin son tapıntı bu rekordu qıra bilib.



## DƏRİNDƏN NƏFƏSALMA BEYNİ MÖHKƏMLƏNDİRİR

***Sakitləşmək və gərginlikdən çıxmaq üçün dərindən nəfəsalmanın vacibliyi barədə tez-tez eşitmişik. Şimal-Qərb Universiteti alimlərinin yeni elmi tədqiqatı dərindən nəfəsalmanın orqanizmimizdə yaratdığı möcüzəyə aydınlıq gətirir.***

"healthvesti.com" saytı xəbər verir ki, burunla bir dəfə dərindən nəfəsalma beyni möhkəmləndirir və xatirələri daha aydın canlandırır. Beynin fəaliyyətinin güclənməsi effekti əsasən insanın burunla, yoxsa ağılla nəfəs almasından, habelə nəfəsi necə alıb-verməsindən asılıdır.

Ekspertlər 60 nəfərin iştirakı ilə eksperiment aparıblar. Onların tənəffüs sistemi daim nəzarətdə olub. Məlum olub ki, insanlar qorxunc sifəti nəfəs verəndə deyil, alanda daha sürətlə eyniləşdirirlər. Bəzi iştirakçılar nəfəsalma zamanı müşahidə etdikləri obyekti daha yaxşı yadda saxlayıblar. Tədqiqatçılar bildirirlər ki, dərindən nəfəsalmanın müsbət təsiri ağızla nəfəsalma zamanı heçə enir.

Alimlər hesab edirlər ki, nəfəsvermə və nəfəsalma zamanı beynin fəallığında böyük fərq olur ki, bu da badamcıqlarda və hippokampda özünü büruzə verir. Belə ki, insanın dərindən nəfəs alması onun ibilmə qabığında, badamcıqlarında, hippokamp və limbik sistemində neyronları stimullaşdırır.

## YARIZARAFAT, YARIGERÇƏK

**Azandan sonra yolu tapa bilməyəcəyinin qorxusundan çox adam heç vaxt azmır.**

**Mən bir gün öləcəyimdən başqa, sizə heç nə üçün söz verə bilmərəm.**

**Kitab oxumayanların nəzərinə: " Bu gün istifadə etdiyiniz hər şey kitab oxuyanların yaratdıqlarıdır."**

**Çox oxumaq adama səbirli olmağı öyrədir. Səbirli olmaq isə, çox oxumaqdan bezməməyi.**

**Zəmanə çox dəyişib: bir vaxtlar bankları soyurdular, indi banklar soyur.**

**Təsir göstərə biləcəklərim özlərinin "dahiliyinə" əmin olduqlarından mən heç vaxt dahi təsiri bağışlamamışam.**

**Kitab çox oxuduğum vaxtlarda adamların düşüncələri mənə maraqlı gəlirdi. Adamları "oxumağı" öyrənəndən kitablar mənə maraqsız görünür.**

**Görəsən hansı ölkədə yaltaqların həyat səviyyəsi daha yüksəkdir? Hər halda bizimkilərin də gün-güzəranı pis keçmir.**

**Xırdaçı adamlar hər xırda şeyi böyütməyi bacardıqlarından, əkib-becərməyi yalnız onlara həvalə etmək lazımdır.**

**Sosializm dağılmayıb məgər? Niyə bəziləri özlərini hələ də lap kolxoz sədri kimi aparırlar?**

**Keçmiş SSRİ-nin vaxtında elə bilirdim ki, iş adamın cövhəridir və buna görə gecə-gündüz işləyirdim. İndi də eyni qaydada işləyirəm ki, dava-dərmana pul çatdırım.**

**Dil günahkardır, yoxsa dilə yalan gətirən?**

**Pis adamı irəli çəkənlərin günahı pislərin özündən çoxdur.**

**Kimlərinsə haqqımda həmişə pis fikirləşdiklərini dərd etməyə dəyərmi? Axı bu, ən azı o deməkdir ki, sabit adamam, heç vaxt dəyişməmişəm.**

**Borc var, mənim içimdə olduğu üçün mən həmişə borcun içindəyəm.**

**Çox gəzən çox bildiyi üçün bir çoxu veyil-veyil gəzməyə meyillidir?**

**Bitirmək istəmədiyiniz işdə nə qədər uğurun gizləndiyini bilsəniz, onu heç vaxt sabaha saxlamazsınız.**

**Hamı qocalığa kimi yaşamaq istəsə də, heç kəs qocalmaq istəmir.**

**Qadınlar yalanlara qarşı daha dözümlüdürlər. Yoxsa həyat yoldaşlarının özlərinə haqq qazandırmaq üçün uydurduqları yalanlar ucbatından dağılmamış ev qalmazdı.**

**Sevgidən başlarını itirə biləcəkləri üçün bəziləri özlərindən başqa, heç kəsi sevmirlər?**

**Kiminsə ağıllı olduğunu ağıllı davranışı qədər gözəl heç nə təsdiq etmir.**

**Dərinliyindən asılı olmayaraq boğula biləcəyimiz hər quyu dərin sayılmalıdır.**

**Səhv edənlərdən yox, səhvlərdən nəticə çıxarmayanlardan ehtiyatlı olun.**

**Yaxa qurtarmaq istədiyiniz ilk şey qüsurlarınız olmalıdır.**

**Axmaqlarla rastlaşmayacağımız yer haradır?**

**Axmaqlığın hüdudları sonsuz ola bilər.**

**Özünü ağıllı hesab edənlərlə addımbaşı rastlaşsam da, axmaq hesab edənlərlə yəqin heç siz də rastlaşmamısınız.**

**Görəsən, Allah niyə yaltaqlığın qarşısını almır? Ona ki, yaltaqlıq edən yoxdur.**

**Sevəndə də... dəli kimi sevmək lazımdır.**

**Dayanmaq barədə düşünməyin. Yorulanda onsuz da dayanacaqsınız.**

**Siz uşaqlara sevgi verin. Qalan bütün şeyləri Allah verib.**

**Nə yaxşı ki, ömrümün son on ili çətinliklər içərisində keçib. İndi yanımda olanlara etibar edə bilərəm.**

**Şikara çevrilmək istəmirsənsə, ovçu kimi düşün.**

**Yaltaqlıq təkcə qorxudan törəmir. Nəfsinin qulu olanların çoxu yaltaqlığa meyillidir.**

**Həqiqət adamın qulağının dibində olur ki, çox adam onu görə bilmir?**

**Qadınları sevmədən, onları anlamaq mümkün deyil.**

**Böyük adam olmağın yolu adam qalmaqdan keçir.**

**Dünya yalnız gözütoxlardan ibarət deyil. Həmişə haqqınızı yemək istəyən kimsə tapılır.**

**Elələri var ki, onların yerinə hətta səhvləri də başqaları edir.**

**Diri-diri basdırdığım arzularıma görə, məndən qəddar adam yoxdur.**

**Danışmaqla nəyisə öyrənmək mümkün olsaydı, heyvərələr indi ağıl dəryası idi.**

**Çox bildiklərini düşünənlərin bildikləri ilə uzağı haraya kimi getmək olar?**

**Xoşbəxtliyin ayağına getməsən, bədbəxtlik boynunda oturar.**

**Özünüzü yaxşı tanıyırsınızsa, kimlərinsə sizi tanımamalarından narahat olmayın.**

**Hava və su bizə yeməkdən daha vacib olsa da, hər ikisini çoxdan zəhərləmişik.**

**Bəzi işlərdə çoxbilmişlər yox, lazım olan şeyləri dəqiq bilənlər daha faydalı olurlar.**

**Çox adamın içində oturubsa, şeytan o qədər də böyük olmaz yəqin.**

**Bizi arxadan təkcə ona görə vurmurlar ki, arxada gözümüz yoxdur.**

**Yenidən cəhd etməyənin uğursuzluq zolağı daha böyük olur.**

**Ən azı cavabların hamısının səni qane etməyəcəyindən həyatın bütün suallarına cavab axtarmağa dəyməz.**

**Məgər, haqqımdan dadlı heç nə yoxdur? Niyə tanıdıqlarım daha çox haqqımı yeməyə çalışırlar?**

***Rasif TAHİROV***

## “Qızıl top”un sahibi Kriştianu Ronaldo seçilib




**“France Football” nəşrinin 2016-cı il üzrə “Ballon d’Or” (Qızıl top) mükafatının qalibi “Real Madrid” klubunun və Portuqaliya yığmasının forvardı Kriştianu Ronaldo seçilib.**

Mükafatın qalibi müxtəlif ölkələri təmsil edən 173 jurnalistin səsverməsi ilə müəyyənləşib.

Xatırladaq ki, Kriştianu Ronaldo 2008-ci, 2013-cü və 2014-cü illərdə “Qızıl top” mükafatının qalibi olub.

Qalibin elan edilməsinə bir neçə saat qalmış Kriştianu Ronaldunun əlində mükafat olan şəklinin “France Football” jurnalının üz qabığında yayılması ilə artıq sosial şəbəkələrdə “Qızıl top”un sahibinin kim olacağına şübhə qalmayıb.

“Barselona” futbol klubunun argentinalı hücumçusu Lionel Messi və braziliyalı hücumçu Neymar da Silva Santos da “Qızıl top” mükafatına namizədlər arasında idilər.

Qeyd edək ki, bu ildən etibarən “France Football” nəşri “Qızıl top”un qalibini 2007-ci ilə qədər olduğu kimi, yenə jurnalistlərin səsverməsi nəticəsində müəyyənləşdirib.

## “Real Madrid” klublararası dünya çempionu olub




**Futbol üzrə klublarası dünya çempionatının qalibi müəyyənləşib.**

“Real Madrid” tarixində ikinci dəfə bu kuboka yiyələnib. İspaniya klubu final matçında meydan sahibi Yaponiyanın “Kaşima Antlers” komandasına 4:2 hesabı ilə qalib gəlib. Həlledici görüşdə əsas vaxt 2:2 hesabı ilə yekunlaşıb. Madrid təmsilçisinin portuqaliyalı bombardiri Kriştiano Ronaldo komandasına qalibiyyət qazandırmağı bacarıb. Cari il dünyanın ən yaxşı futbolçusu seçilən 31 yaşlı hücumçu əlavə vaxtda daha iki qol vuraraq het-trik edib. Beləliklə, kral klubu 2014-cu ildən sonra ikinci dəfə sözügedən turnirin qalibi olub.

Qeyd edək ki, “Real Madrid”dən fərqli İspaniyanın digər nəhəngi “Barselona” bu kuboku 3 dəfə (2009, 2011 və 2015-ci il) qazanıb.





## CÜDO ÜZRƏ AZƏRBAYCAN ÇEMPİONATINA YEKUN VURULUB

***Dekabrın 23-də Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə keçirilən Azərbaycan çempionatına yekun vurulub.***

Qızların yarışında Aişə Qurbanlı (48 kq), Nəzakət Əzizova (52 kq), Şəhanə Alməmmədova (57 kq), Gülsədəf Kərimova (63 kq), Kristina Jukovets (70 kq), Günel Həsənli (78 kq) və Şəms Hacıyeva (78 kq-dan yuxarı) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Oğlanların mübarizəsində Oruc Vəlizadə (60 kq) və Emin Həsənov (66 kq), Elvin Mustafayev (73 kq), Tofiq Səfərli (81), Abdulhaq Rəsullu (90 kq), Cəlil Şükürov (100 kq) və Uşanqi Kokauri (100 kq-dan yuxarı) respublika çempionatında birinci olublar.



Qaliblərə medallar, fəxri diplomlar və pul mükafatları təqdim olunub.

Ümumilikdə, yarışda 48 klubdan 366 cüdoçu (315 kişi, 51 qadın) qüvvəsini sınayıb. İki gün davam edən respublika çempionatının qalibləri milli komandamızın növbəti təlim-məşq toplanışına dəvət olunublar.

## AZƏRBAYCAN TAEKVANDOÇULARI KOMANDALARARASI DÜNYA ÇEMPİONATINI QƏLƏBƏ İLƏ BAŞA VURUBLAR





***“Sərhədçi” Olimpiya İdman Mərkəzində iki gün davam edən taekvando üzrə komandalararası dünya çempionatına dekabrın 13-də yekun vurulub.***

Azərbaycanın taekvando üzrə kişilərdən ibarət yığma komandası dünya çempionatını qələbə ilə başa vurub.

Milli komandamız yarımfinalda Türkiyə idmançılarına 33:3 hesabı ilə qalib gəlib. Millimiz həlledici qarşılaşmada – finalda taekvandonun vətəni sayılan Koreya Respublikasının yığma komandasını böyük xal fərqi - 21:5 hesabı ilə məğlub edib. Nəticədə baş məşqçi Reza Mehmandostun yetirmələri dünya çempionu titulunu qoruyublar. Milli komandamız 2015-ci ildə Meksikada keçirilən mundialda dünya çempionu adını qazanılıb. Bürünc medallara isə Türkiyə və Belçika komandaları sahib olublar.

Qadın komandalar arasında yarımfinal görüşlərində Çin Türkiyəni (9:6), Koreya Respublikası isə Rusiyanı (17:10) məğlub edib. Finalda cənubi koreyalıları 6:4 hesabı ilə məğlub edən çinlilər dünya çempionu adına layiq görülüblər. Türkiyə və Rusiya taekvandoçuları bürünc medallarla kifayətləniblər.

Qarışıq komandaların yarışında isə Koreya Respublikasının idmançıları qalib gəliblər. Cənubi koreyalılar finalda Rusiyanı məğlub ediblər. Belçika və ABŞ milliləri çempionatı bürünc medallarla başa vurublar.

Sonda qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Kişilərdən ibarət yığma komandaların üzvlərinə medalları Azərbaycan Taekvando Federasiyasının vitse-prezidenti Nağı Səfərov təqdim edib.

Qadın idmançılara isə mükafatları Beynəlxalq Taekvando Federasiyasının (WTF) rəhbəri Çunqvon Ço, qarışıq komandalara isə WTF-in idarə heyətinin üzvü Mətin Şahin təqdim ediblər.

Sonra medallara layiq görülən digər komandaların üzvləri də təltif ediliblər.

Azərbaycan millisinin üzvü Milad Beigi Harçeqani dünya çempionatının “Ən yaxşı kişi idmançısı” adına layiq görülüb.



## Triatlonçumuz Avropanın ən yaxşısı seçilib

**Avropa triatlonçuları üçün 2016-cı ilin yekun reytinq siyahısı açıqlanıb.**

Kişilərin reytinq siyahısına Azərbaycan təmsilçisi Rostislav Pevtsov başçılıq edir. İdmançımız 1399 xalla Avropanın birincisidir.

Qadınların reytinq siyahısında isə aktivində 1066,11 xal olan təmsilçimiz Kseniya Levkovskaya 14-cü pillədə qərarlaşıb.

## Azərbaycan boksçuları dünya kubokuna sahib olublar

***Nijnevaratovskda Sibir neftini kəşf edən, Sosialist Əməyi Qəhrəmanı Fərman Salmanovun xatirəsinə həsr olunmuş neft ölkələri arasında boks üzrə dünya kuboku yarışları keçirilib.***



Azərbaycanı yarışda uğurla təmsil etmiş boksçularımız Məsud Yusifzadə (52 kq), Pərviz Bağırov (69 kq) və Teymur Məmmədov (91 kq) bütün rəqiblərindən üstün olaraq dünya kubokuna sahib olublar.

Qeyd edək ki, yarışda 14 ölkədən 130 idmançı iştirak edib.

Qızıl medal sahibləri, həmçinin Beynəlxalq dərəcəli idman ustası adını da qazanıblar.







## Ağır atletika beşnövçülüyü üzrə onuncu dünya çempionatının qalibləri müəyyənləşib

***AAAF Park Yaşayış Kompleksinin yarış zalında ağır atletika beşnövçülüyü üzrə 10-cu dünya çempionatına keçirilib.***

“Zirvə” beynəlxalq idman klubu ilə Azərbaycan Pauerliftinq Federasiyasının birgə təşkil etdiyi turnir böyük marağa səbəb olub.

Azərbaycan, Ukrayna, Moldova və İrandan olan atletlərin körpücük üzərinə çıxdığı ağırlıqla oturub-durma, uzanaraq ağırlığın sinədən sıxılması və ağırlığı dartma hərəkətlərində böyük çəkilər qaldırılıb, azarkeşlərin rəğbəti qazanılıb.

Hər hərəkətdə ayrıca qaliblər müəyyən edilib. Onlara pul mükafatı və sertifikatlar təqdim edilib.

Turnirin keçirilməsində məqsəd Azərbaycanda və dünyada güc idman növlərinin inkişafına təkan vermək, sağlam gənc nəslin yetişdirilməsinə dəstək olmaqdır.




## Boykot etmək problemin həlli deyil



***Rusiyanın 2018-ci il və Qətərin 2022-ci ildə ev sahibliyi edəcək futbol üzrə dünya çempionatlarını boykot etmək və bu ölkələrin əlindən yarışın alınması problemin həlli deyil. Bütün dünyada olduğu kimi, Rusiya və Qətərdə də futbolu sevən insanlar yaşayır.***

Bu barədə FIFA-nın prezidenti Canni İnfantino Almaniyanın “Spiegel” informasiya portalına müsahibəsində deyib.

Beynəlxalq Antidopinq Agentliyinin (WADA) komissiya rəhbəri Riçard Maklarenin qarşıdakı mundialı boykota çağırması ilə razılaşmayan futbol funksioneri bunu çıxış yolu hesab etmədiyini bildirib: “2010 və 2014-cü illərdə baş tutmuş mundiallarda dopinq yoxlanışı təşkilatçı ölkələr tərəfindən deyil, FIFA tərəfindən həyata keçirilib. Bu qayda Rusiya və sonrakı çempionatlara da aid ediləcək. Çünki ali futbol qurumunun öz antidopinq sistemi mövcuddur. Yarışları keçirmək hüququndan məhrum etmək və boykot heç vaxt çıxış yolu olmayıb. Əgər problemlər varsa, onları həll etmək, müzakirələr aparmaq lazımdır. Biz irəliyə doğru addımlamalıyıq”.

Xatırladaq ki, Rusiyadakı dünya çempionatı 2018-ci il iyunun 14-dən iyulun 15-dək keçiriləcək.

## IV İslam Həmrəylik Oyunlarında iştirakçı ölkələrin sayı 57-yə çata bilər

BAKU 2017
4th Islamic Solidarity Games

***Gələn il Azərbaycanda təşkil olunacaq IV İslam Həmrəylik Oyunlarında 50 ölkə iştirakını təsdiqləyib.***

Ev sahibi Azərbaycan ilə yanaşı, Səudiyyə Ərəbistanı, Niger, İraq, Somali, İran, Birləşmiş Ərəb Əmirlikləri, Mavritaniya, Banqladeş, Türkmənistan, Liviya, Surinam, Tunis, Komor adaları, Əlcəzair, İndoneziya, Pakistan, Fələstin, Fil Dişi Sahili, İordaniya, Türkiyə, Uqanda, Oman, Əfqanıstan, Mərakeş, Malayziya, Albaniya, Cibuti, Qayana, Tacikistan, Bəhreyn, Kamerun, Qvineya-Bisau, Qırğızıstan, Qambiya, Benin, Nigeriya, Qazaxıstan, Maldiv adaları, Mali, Çad, Mozambik, Suriya, Seneqal, Syerra-Leone, Toqo, Qətər, Qabon, Qvineya və Sudan “Bakı-2017”yə qatılacaq.

Ölkələrin sayına görə, Azərbaycan İslam Həmrəylik Oyunları tarixində bir ilkə imza atacaq.

Lakin ölkələrin sayının daha da artması istisna deyil. Bu rəqəm 57-yə çata bilər.




BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3756